112.2. Yetkinlik yaşına çatan və fəaliyyət qabiliyyəti olmayan şəxsin aliment ödəməli olan şəxsə qarşı qəsdən cinayət törətdiyi və ya ailədə nalayiq davrandığı müəyyən edilərsə, məhkəmə həmin şəxs üçün aliment tutulması barədə tələbi rədd edə bilər.

Maddə 113. **Aliment öhdəliklərinə xitam verilməsi**

113.1. Aliment ödənilməsi barədə saziş əsasında müəyyən olunmuş aliment öhdəliklərinə tərəflərdən birinin ölümü nəticəsində, sazişin müddəti bitdikdə və ya sazişdə nəzərdə tutulmuş əsaslar üzrə xitam verilir.

113.2. Məhkəmə qaydasında tutulan alimentin ödənilməsinə aşağıdakı hallarda xitam verilir:

113.2.1. uşaq yetkinlik yaşına çatdıqda və ya yetkinlik yaşına çatmamış tam fəaliyyət qabiliyyəti əldə etdikdə;

113.2.2. aliment ödənilən uşaq övladlığa götürüldükdə;

113.2.3. aliment alan şəxsin maddi yardıma ehtiyacının ödənildiyi və ya əmək qabiliyyətinin bərpa olunduğu məhkəmə tərəfindən müəyyən olunduqda;

113.2.4. aliment alan şəxs və ya aliment ödəyən şəxs öldükdə;

113.2.5. əmək qabiliyyəti olmayan və ya ehtiyacı olan aliment alan ər və ya arvad yeni nikaha daxil olduqda.

## Altıncı bölmə

## Valideyn himayəsindən məhrum olan uşaqları tərbiyə formaları

*18-ci fəsil*

### Valideyn himayəsindən məhrum olan uşaqların aşkar olunması və yerləşdirilməsi

Maddə 114. **Valideyn himayəsindən məhrum olan uşaqların hüquq və mənafelərinin müdafiəsi**

114.1. Valideynlər öldükdə, valideynlik hüquqlarından məhrum olunduqda, valideynin hüquqları məhdudlaşdırıldıqda, valideynlər fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, valideynlər xəstələndikdə, uzun müddət uşaqlarla birlikdə olmadıqda, valideynlər uşaqların tərbiyəsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən yayındıqda, o cümlədən *sosial xidmət müəssisələrindən* öz uşaqlarını götürməkdən imtina etdikdə, eləcə də valideyn himayəsinin olmadığı digər hallarda uşaqların hüquq və mənafelərinin müdafiəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.[49]

*114.2. Valideyn himayəsindən məhrum olmuş uşaqlar aşkar edildikdən sonra müvafiq icra hakimiyyəti orqanı valideyn himayəsindən məhrum olmağın konkret hallarını nəzərə almaqla 1 (bir) ay müddətində həmin uşaqların bu Məcəllənin 116.1-ci maddəsinə uyğun olaraq yerləşdirilməsini (övladlığa vermə istisna olmaqla) təmin edir.*[50]

114.3. Müvafiq icra hakimiyyəti orqanından başqa, digər hüquqi və fiziki şəxslərin valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsi üzrə fəaliyyətinə yol verilmir.

Maddə 115. **Valideyn himayəsindən məhrum olan uşaqların aşkar olunması ~~və uçotu~~** [51]

115.1. Bu Məcəllənin 114.1-ci maddəsində göstərilən uşaqlar haqqında məlumatlara malik doğum evləri, məktəbəqədər, ümumtəhsil, müalicə və digər müəssisələrin vəzifəli şəxsləri və digər vətəndaşlar bu məlumatları müvafiq icra hakimiyyəti orqanına verməyə borcludurlar.[52]

115.2. Müvafiq icra hakimiyyəti orqanı belə məlumatları aldıqdan sonra üç gün müddətində uşağın həyat şəraitini müəyyən etməyə, valideynlərin və yaxın qohumlarının himayəsindən məhrum olma faktı müəyyən edildikdə uşaqların yerləşdirilməsi məsələsi həll olunana qədər onların hüquq və mənafelərinin müdafiəsini təmin etməyə borcludur.

115.3. Valideyn himayəsindən məhrum olan uşaqların yerləşdiyi *sosial xidmət müəssisələrinin* rəhbərləri həmin uşaqların tərbiyə olunmaq üçün ailəyə verilməsinin mümkün olduğunu bildikdə 7 gün müddətində müvafiq icra hakimiyyəti orqanına bu barədə məlumat verməyə borcludurlar.[53]

*115.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) valideyn himayəsindən məhrum olmuş uşaqları aşkar etdikdən və bu Məcəllənin 114.1-ci maddəsində göstərilmiş məlumatları aldıqdan sonra həmin uşaq haqqında bu Məcəllənin 119.2.1-ci və 119.2.3-cü maddələrində göstərilən məlumatları dərhal müvafiq icra hakimiyyəti orqanının Mərkəzləşdirilmiş elektron informasiya sisteminə (bundan sonra – elektron informasiya sistemi) daxil edir.*[54]

115.5. ~~Müvafiq icra hakimiyyəti orqanı valideyn himayəsindən məhrum olan uşaqlar haqqında məlumatları mərkəzləşdirilmiş uçota alır, ümumi uçota alınmaq üçün müvafiq icra hakimiyyəti orqanına təqdim edir, bundan sonra onların tərbiyə olunmaq üçün ailələrdə yerləşdirilməsinə yardım edir.~~

~~115.6. Valideyn himayəsindən məhrum olan uşaqların uçotunun aparılması qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.~~[55]

115.7. Bu Məcəllənin 115.2—*115.4-cü* maddələrində nəzərdə tutulmuş vəzifələri yerinə yetirməməyinə və bilərəkdən yanlış məlumatlar verməyə görə, eləcə də uşağı ailə tərbiyəsinə verməməyə yönəldilmiş digər hərəkətlərə görə bu

Məcəllənin 115.3-cü maddəsində göstərilmiş müəssisə rəhbərləri, habelə müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqanın (qurumun)* vəzifəli şəxsləri qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilirlər.[56]

Maddə 116. **Valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsi**

116.1. Valideyn himayəsindən məhrum olan uşaqlar ailə tərbiyəsinə (övladlığa, qəyyumluğa, himayəyə və ya himayədar ailəyə) bu imkanlar olmadıqda isə valideyn himayəsindən məhrum olan *uşaqlar üçün sosial xidmət müəssisələrinə verilirlər.*[57]

116.2. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsinin başqa formaları müəyyən edilə bilər.

116.3. Uşağın yerləşdirilməsi zamanı onun etnik mənşəyi, müəyyən dinə və mədəniyyətə mənsubiyyəti, ana dili, onun təhsil və tərbiyəsi üçün daha əlverişli imkanlar nəzərə alınmalıdır.

116.4. Valideyn himayəsindən məhrum olan uşaqların ailəyə və ya bu Məcəllənin 116.1-ci maddəsində göstərilən müəssisələrə yerləşdirilməsinə qədər himayəçi vəzifəsinin yerinə yetirilməsi müvəqqəti olaraq müvafiq icra hakimiyyəti orqanına həvalə edilir.

*19-cu fəsil*

**Övladlığa götürmə**

Maddə 117. **Övladlığa götürülməsinə yol verilən uşaqlar**

117.1. Övladlığa götürməyə yetkinlik yaşına çatmayanlar barəsində və yalnız onların mənafeyi naminə uşağın doğumu müvafiq icra hakimiyyəti orqanında qeydə alındıqdan sonra yol verilir.[58]

117.2. Bir uşaq iki şəxs tərəfindən (ər-arvaddan başqa) övladlığa götürülə bilməz.

117.3. Ər (arvad) özünün nikahdan olmayan uşağını və ya arvadının (ərinin) uşağını övladlığa götürə bilər.

117.4. Uşağın mənafeyinə cavab verən hallar istisna olmaqla, qardaş və bacıların müxtəlif şəxslər tərəfindən övladlığa götürülməsinə yol verilmir.

117.5. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən uşaqların*, habelə Azərbaycan Respublikasının vətəndaşı olmayan, lakin bu Məcəlləyə uyğun olaraq vahid uçota alınmış uşaqların,* övladlığa götürülməsinə, həmin uşaqları Azərbaycan Respublikası ərazisində daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının ailələrinə tərbiyəyə vermək mümkün olmadıqda və ya vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq qohumları (bacıları, qardaşları, nənələri, babaları, valideynlərinin bacıları, qardaşları, onların övladları) övladlığa götürmədikdə icazə verilir.[59]

117.6. Uşaqlar *(bu Məcəllənin 117.6-1-ci maddəsində göstərilən hal istisna olmaqla)* Azərbaycan Respublikasından daimi olaraq kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, uşaqların qohumu olmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bu Məcəllənin *119.1-ci* maddəsinə uyğun olaraq *vahid uçota alındığı* gündən 6 ay müddət bitdikdən sonra övladlığa verilə bilərlər.[60]

*117.6-1. Azərbaycan Respublikasının vətəndaşı olmayan, lakin bu Məcəllənin 119.1-ci maddəsinə uyğun olaraq vahid uçota alınmış uşaqların Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, uşaqların qohumu (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) olmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə övladlığa verilməsinə onlar uçota alındıqları gündən 1 (bir) il müddət keçdikdən sonra yol verilir.*[61]

~~117.7. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsinə müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında yol verilir.~~[62]

***Maddə 118. Övladlığa götürmə qaydası***

*118.1. Övladlığa götürmə üç mərhələdə həyata keçirilir:*

*118.1.1. övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması;*

*118.1.2. övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi;*

*118.1.3. övladlığa götürmə barədə məhkəmə qərarının qəbul edilməsi.*

*118.2. Övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması bu Məcəllənin 119-cu maddəsinə uyğun olaraq həyata keçirilir.*

*118.3. Övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğu müvafiq icra hakimiyyəti orqanı tərəfindən 1 (bir) ildən çox olmayan müddətdə aşağıdakı qaydada müəyyən edilir:*

*118.3.1. övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə aparılması;*

*118.3.2. övladlığa götürmək istəyən şəxsin (şəxslərin) təlimlərə cəlb edilməsi;*[63]

*118.3.3. övladlığa götürmək istəyən şəxsə (şəxslərə) uyğun uşağın, övladlığa götürülən uşağa uyğun valideynin seçilməsi;*[64]

*118.3.4. övladlığa götürülən uşaqla övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uşağın yerləşdiyi müəssisədə görüşünün təşkili;*

*118.3.5. övladlığa götürülən uşağın sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) evində yerləşdirilməsi.*

*118.4. Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*

*118.5. Müvafiq icra hakimiyyəti orqanı övladlığa götürmənin məqsədləri, övladlığa götürmək istəyən şəxsin (şəxslərin) həyat şəraiti, ailə tərkibi, ailə üzvlərinin övladlığa götürməyə münasibətini öyrənmək məqsədilə elektron informasiya sistemində uçota alınma ardıcıllığına uyğun olaraq seçilmiş övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə keçirir, habelə bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq həmin şəxsin (şəxslərin) maddi-məişət şəraitinin müayinəsini aparır.*

*118.6. Öz ölkələrində övladlığa götürmə ilə bağlı təlim keçmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla, müsahibədən keçmiş övladlığa götürmək istəyən şəxs (şəxslər) müvafiq icra hakimiyyəti orqanı tərəfindən övladlığa götürmə ilə bağlı 30 (otuz) gündən çox olmayan müddətdə təlimlərə cəlb edilir. Öz ölkəsində övladlığa götürmə ilə bağlı təlim keçməsi barədə təsdiqedici sənəd (sertifikat) təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təlimlərə cəlb edilmirlər.*

*118.7. Təlimin nəticələri bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilən meyarlara əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən qiymətləndirilir.*

*118.8. Təlimin nəticələri müsbət qiymətləndirildikdə, müvafiq icra hakimiyyəti orqanı, övladlığa götürmək istəyən şəxsin (şəxslərin) və valideyn himayəsindən məhrum olmuş uşağın istək və mənafeyini nəzərə almaqla, övladlığa götürülən uşağa uyğun valideyn və övladlığa götürmək istəyən şəxsə (şəxslərə) uyğun uşaq seçir və uşağın yerləşdiyi müəssisədə sosial işçinin iştirakı ilə onların görüşünü (görüşlərini) təşkil edir.*

*118.9. Bu Məcəllənin 118.8-ci maddəsində nəzərdə tutulmuş görüşün (görüşlərin) nəticəsinə dair sosial işçinin hesabatı nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanı uşağın övladlığa götürmək istəyən şəxsin (şəxslərin) ailəsində sınaq müddəti ilə yerləşdirilib-yerləşdirilməməsi barədə qərar qəbul edir. Uşaq övladlığa götürmək istəyən şəxsin (şəxslərin) ailəsində müvafiq icra hakimiyyəti orqanı və övladlığa götürmək istəyən şəxs (şəxslər) arasında bağlanmış müqavilə əsasında yerləşdirilir.*

*118.10. Uşaq Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan övladlığa götürmək istəyən şəxsin (şəxslərin), o cümlədən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ailəsində sınaq müddətində həmin şəxslərin Azərbaycan Respublikasında mülkiyyətində yaşayış sahəsi olduğu hallarda həmin yaşayış sahəsində, əks halda Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq olduqları yer üzrə qeydiyyata alındıqdan sonra həmin yerlərdə yerləşdirilir.*

*118.11. Sosial işçi uşağın övladlığa götürmək istəyən şəxsin (şəxslərin) ailəsində sınaq müddətində yerləşdirilməsinin monitorinqini aparır. Monitorinqin nəticəsi mənfi olduqda uşaq sosial xidmət müəssisəsinə qaytarılır və müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq reabilitasiya tədbirləri görülür.*

*118.12. Müvafiq icra hakimiyyəti orqanı uşağın övladlığa götürmək istəyən şəxsin (şəxslərin) ailəsində sınaq müddətində yerləşdirilməsinin nəticələrinə əsasən övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğu barədə rəy verir.*

*118.13. Müvafiq icra hakimiyyəti orqanının uşağın övladlığa götürülməsi ilə bağlı rəyi müsbət olduqda, uşağı övladlığa götürmək istəyən şəxs (şəxslər) həmin rəylə birlikdə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq ərizə ilə məhkəməyə müraciət edir. Məhkəmənin müvafiq qərarı qəbul edilənədək, habelə məhkəmə tərəfindən uşağın övladlığa verilməsi barədə müsbət qərar qəbul edildikdə, bu Məcəllənin 118.9-cu maddəsi ilə müəyyən edilmiş sınaq müddəti həmin qərarın qanuni qüvvəyə mindiyi günədək uzadılır. Müvafiq icra hakimiyyəti orqanının uşağın övladlığa verilməsi ilə bağlı rəyi mənfi olduqda və ya məhkəmə uşağın övladlığa verilməsindən imtina olunması barədə qərar qəbul etdikdə uşaq yerləşdiyi müəssisəyə qaytarılır və müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq reabilitasiya tədbirləri görülür.*

*118.14. Müvafiq icra hakimiyyəti orqanının övladlığa götürmənin övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəyi mənfi olduqda, uşağı övladlığa götürmək istəyən şəxs (şəxslər) bu Məcəllənin 118.3-cü (bu Məcəllənin 118.3.1-ci maddəsi istisna olmaqla) maddəsi ilə müəyyən edilmiş prosedurları təkrar keçməlidirlər.*

*118.15. Uşaq qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən övladlığa götürüldükdə, bu Məcəllənin 118.3.2-118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil edilmir.*[65]

*118.16. Uşaq ögey ata, ögey ana tərəfindən övladlığa götürüldükdə (hər iki valideynin vəfat etdiyi hallar istisna olmaqla) bu Məcəllənin 118.3-cü maddəsinin tələbləri onlara şamil olunmur.*

*118.17. Azərbaycan Respublikası vətəndaşı olan uşaqlar əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə, uşağı övladlığa götürmək istəyən şəxsə (şəxslərə) hüquqi yardım akkreditə edilmiş orqan tərəfindən həyata keçirilir.*

*118.18. Akkreditə edilmiş orqan müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.*

*118.19. Övladlığa götürmək istəyən şəxsin (şəxslərin) və övladlığa götürülən uşaqların hüquq və vəzifələri məhkəmənin uşağın övladlığa götürülməsinin müəyyən olunması barədə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən yaranır.*

*118.20. Uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək 'Elektron məhkəmə' informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*[66]

*118.21. Uşağın övladlığa götürülməsi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üçün müəyyən olunmuş qaydada qeydiyyata alınır.*

*118.22. Övladlığa götürmə barədə qərar məhkəmə tərəfindən uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin), Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman isə övladlığa götürmək istəyən şəxs (şəxslərin) və ya onların müraciəti əsasında akkreditə edilmiş orqanın ərizəsi əsasında qəbul edilir. Övladlığa götürmə barədə ərizəyə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır.*

*118.23. Ögey ata (ögey ana) tərəfindən övladlığa götürülmə zamanı məhkəmə prosesində müvafiq icra hakimiyyəti orqanının iştirakı tələb olunmur.*

*118.24. Ər-arvaddan biri əcnəbi olan nikahda olan şəxs (qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları,*

*qardaşları, onların övladları) istisna olmaqla) tərəfindən övladlığa götürmə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürməyə bərabər tutulur.*[67]

***Maddə 119. Valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların və övladlığa götürmək istəyən şəxslərin uçotu***

*119.1. Müvafiq icra hakimiyyəti orqanı valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların və övladlığa götürmək istəyən şəxsin (şəxslərin) vahid informasiya bazasını yaratmaq məqsədilə elektron informasiya sistemində "e-sosial" internet portalı üzərindən dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə onların vahid uçotunu bu maddənin tələbləri nəzərə alınmaqla elektron formada aparır.*

*119.2. Bu Məcəllənin 119.1-ci maddəsində göstərilən vahid informasiya bazasında aşağıdakı məlumatlar əks olunmalıdır:*

*119.2.1. valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaq və övladlığa götürmək istəyən şəxs barədə fərdi məlumatlar;*

*119.2.2. valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşağın və övladlığa götürmək istəyən şəxsin sağlamlıq vəziyyəti barədə məlumatlar;*

*119.2.3. valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşağın aşkar olunma şəraitinə dair məlumatlar, valideynləri (olduqda), valideyn himayəsindən məhrum edilmə səbəbləri barədə məlumatlar;*

*119.2.4. əvvəllər övladlığa götürülüb-götürülməməsi barədə məlumatlar;*

*119.2.5. övladlığa götürmək istəyən şəxsin təhsili (peşəsi), iş yeri, vəzifəsi barədə məlumatlar;*

*119.2.6. övladlığa götürmək istəyən şəxsin məhkumluğu barədə məlumatlar;*

*119.2.7. övladlığa götürmək istəyən şəxsin yaşayış şəraiti, gəlirləri və öhdəlikləri barədə məlumatlar;*

*119.2.8. övladlığa götürmək istəyən şəxsin əvvəllər övladlığa götürən şəxs olub-olmamasına dair məlumatlar.*

*119.3. Azərbaycan Respublikası vətəndaşı olan uşağı övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu Məcəllənin 119.2.1-119.2.2-ci və 119.2.5-119.2.8-ci maddələrində qeyd olunan məlumatları bilavasitə və yaxud akkreditə edilmiş orqan vasitəsilə kağız və ya elektron daşıyıcılarda müvafiq icra hakimiyyəti orqanına təqdim etdikdən sonra uçota alınırlar.*

*119.4. Qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları), eləcə də ögey ata (ögey ana) tərəfindən övladlığa götürmə zamanı bu Məcəllənin 119.1-ci maddəsində göstərilən vahid informasiya bazasında övladlığa götürən şəxslərə dair yalnız onların məhkumluğu və sağlamlıq vəziyyəti haqqında məlumatlar əks olunur.*[68]

*119.5. Bu Məcəllənin 119.2-ci maddəsində göstərilən məlumatlar müvafiq icra hakimiyyəti orqanının elektron informasiya sisteminə inteqrasiya olunan dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə əldə edilir və müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin məlumatların mütəmadi yenilənməsi təmin edilir. Bu mümkün olmadıqda həmin məlumatlar "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunun 30.5-ci maddəsinə uyğun olaraq əldə edilir.*

*119.6. Bu Məcəllənin 119.2.1-119.2.2-ci maddələrində və 119.2.5-119.2.8-ci maddələrində göstərilən məlumatlar övladlığa götürmək istəyən şəxs tərəfindən təqdim edildiyi halda həmin məlumatlar 6 (altı) ay müddətində etibarlıdır.*

*119.7. Uşağı övladlığa götürmək istəyən şəxs (şəxslər) bu Məcəllənin 119.2.1-119.2.2-ci və 119.2.5-119.2.8-ci maddələrində məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyırlar. Bilə-bilə təhrif olunmuş və ya düzgün olmayan məlumat təqdim etmiş övladlığa götürmək istəyən şəxs (şəxslər) müvafiq icra hakimiyyəti orqanı tərəfindən 1 (bir) il müddətində övladlığa götürmənin bu Məcəllənin 118.1.2-ci maddəsində nəzərdə tutulan mərhələsindən kənarlaşdırılırlar.*

*119.8. Müvafiq icra hakimiyyəti orqanı övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi mərhələsində bu Məcəllənin 119.2-ci maddəsində göstərilən məlumatların monitorinqini aparmaq hüququna malikdir.".*

*119.9. Bu Məcəllənin 119.1-ci maddəsində göstərilən vahid informasiya bazasında uçota alınmış valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqlar aşağıdakı hallarda uçotdan çıxarılırlar:*

*119.9.1. vəfat etdikdə;*

*119.9.2. 18 yaşına çatdıqda;*

*119.9.3. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq valideyn himayəsindən məhrum olmuş uşaq hesab olunmadıqda.*

*119.10. Uşağı övladlığa götürmək istəyən şəxs (şəxslər) aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən uçotdan çıxarılır:*

*119.10.1. vəfat etdikdə;*

*119.10.2. bu Məcəllənin 118.3.1-ci maddəsinə uyğun olaraq müsahibədən övladlığa götürmənin məqsədlərinin uşağın mənafeyinə uyğun olmadığı səbəbindən keçmədikdə;*

*119.10.3. bu Məcəllənin 120.1.6-cı maddəsində göstərilən cinayət əməllərinin törədilməsinə görə məsuliyyətə cəlb edildikdə;*

*119.10.4. bu Məcəllənin 120.2-ci maddəsi ilə müəyyən edilən xəstəliklərdən birinə tutulduqda;*

*119.10.5. barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər, cinayət təqibi müddətində.*

*119.11. Bu Məcəllənin 119.10.2-ci maddəsinə əsasən uçotdan çıxarılan şəxslər, bu Məcəllənin 119.1-ci maddəsinə uyğun olaraq 1 (bir) ildən sonra təkrar uçota alınırlar.*[69]

***Maddə 119-1. Övladlığa götürmədən sonra monitorinq***

*119-1.1. Müvafiq icra hakimiyyəti orqanı övladlığa götürülən uşaq 18 yaşına çatanadək uşağın ailədəki vəziyyəti, əqli, fiziki, psixoloji və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə övladlığa götürmənin birinci ilində rübdə bir dəfə, növbəti illərdə ildə bir dəfədən az olmayaraq olaraq monitorinq aparır.*

*119-1.2. Bu Məcəllənin 119-1.1-ci maddəsində nəzərdə tutulan monitorinqin aparılması qaydası bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qayda ilə tənzimlənir.*[70]

Maddə 120. **Övladlığa götürmək hüququ olan şəxslər**

120.1. Aşağıdakılar istisna olmaqla, hər iki cinsdən olan *bu Məcəllənin 121.1-ci və 121.2-ci maddələri ilə müəyyən edilən tələblərə cavab verən şəxs (şəxslər)* övladlığa götürən ola bilərlər:[71]

120.1.1. məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər;

120.1.2. məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər;

120.1.3. qanunla üzərinə qoyulan vəzifəni yerinə yetirmədiyinə görə qəyyum və ya himayəçi vəzifələrindən kənarlaşdırılmış şəxslər;

120.1.4. əvvəllər məhkəmə tərəfindən təqsirkar bilinərək bu hüququ ləğv edilmiş şəxslər;

120.1.5. səhhətinə görə valideyn vəzifələrini həyata keçirə bilməyən şəxslər *;*

*120.1.6. məhkumluğun götürülməsi və ödənilməsi nəzərə alınmadan, sülh və insanlıq, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə, həyat və sağlamlıq, şəxsiyyətin azadlığı və ləyaqəti, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə, yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə qəsdən törədilən ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər və bu cinayətləri törətdiyinə görə barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş şəxslər;*

*120.1.7. barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər, cinayət təqibi müddətində;*

*120.1.8. ailədə adambaşına düşən orta aylıq gəliri ailə üzvlərinin hər biri üçün (övladlığa götürüləcək uşaq da nəzərə alınmaqla) ölkə üzrə müəyyən olunmuş yaşayış minimumunun məbləğindən (Azərbaycan Respublikası vətəndaşı olan uşaqları övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün yaşadıqları ölkə üzrə orta aylıq əməkhaqqının 2 (iki) mislindən) az olan şəxslər (ögey ata (ögey ana) və qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla).*[72]

120.2. Övladlığa götürməyə, qəyyumluğa və himayəyə qəbul etməyə imkan verməyən xəstəliklərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

120.3. Aralarında nikah olmayan şəxslər birlikdə eyni uşağı övladlığa götürə bilməzlər.

*120.4. Nikahda olmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən uşağın övladlığa götürülməsi istisna olmaqla) tərəfindən uşaqların övladlığa götürülməsinə yol verilmir.*[73]

*120.5. Azərbaycan Respublikası vətəndaşı olan uşağı övladlığa götürmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin mülkiyyətində, orada yaşayan hər bir şəxs nəzərə alınmaqla yerləşdiyi ölkənin müvafiq qanunvericiliyinə əsasən minimum normadan az olmayan yaşayış sahəsi olmalıdır.*

*120.6. Bu Məcəllənin 120.1.6-cı, 120.1.7-ci və 120.2-ci maddələrində qeyd olunan tələblər eyni zamanda uşağı övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) birgə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslərə münasibətdə də tətbiq edilir.*[74]

***Maddə 121. Övladlığa götürmək istəyən şəxsə (şəxslərə) dair yaş tələbləri***

*121.1. Ögey ata (ögey ana), habelə qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla, övladlığa götürmək istəyən nikahda olan şəxslərdən biri (ər-arvad) üçün aşağı yaş həddi 25, nikahda olmayanlar üçün 30 yaşdır.*

*121.2. Ögey ata (ögey ana), habelə qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla, övladlığa götürmək istəyən nikahda olmayan şəxslə (şəxslərlə) övladlığa götürülən uşağın yaş fərqi 18-dən az olmamalıdır.*[75]

*121.3. Uşağın övladlığa verilməsi zamanı bu Məcəllənin 121.1-ci və 121.2-ci maddələrinin tələbləri nəzərə alınmaqla, nikahda olan şəxslərə (azı 3 il (yaşı 35-dən yuxarı olan ər-arvad üçün 1 (bir) il) müddətində nikahda olan Azərbaycan Respublikasının vətəndaşlarına və azı 5 (beş) il müddətində nikahda olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə), habelə yuxarı yaş həddi 55-dək olan şəxslərə üstünlük verilir.*

*121.4. Məhkəmə tərəfindən üzrlü hesab edilən hallarda, bu Məcəllənin 121.1-ci maddəsində müəyyən edilən yaş həddi və 121.2-ci maddəsində müəyyən edilən yaş fərqi azaldıla bilər.*[76]

Maddə 122. **Uşağın övladlığa götürülməsinə valideynlərin razılığı**

122.1. Valideynləri olan uşaq bu Məcəllənin 123-cü maddəsində göstərilənlər istisna olmaqla, yalnız valideynlərinin razılığı ilə övladlığa götürülə bilər. Yetkinlik yaşına çatmayan valideynlərin uşaqlarının övladlığa götürülməsi zamanı həmin valideynlərin qəyyumlarının (himayəçilərinin) və valideynlərinin razılığı, valideynlər, qəyyumlar və himayəçilər olmadıqda isə müvafiq icra hakimiyyəti orqanının *rəyi* tələb olunur. Uşaqlarının övladlığa götürülməsinə valideynlərin yazılı razılığı notariat qaydasında~~, valideyn himayəsindən məhrum olan uşağın yerləşdiyi müəssisənin rəhbəri və ya övladlığa götürmənin həyata keçdiyi yer, yaxud valideynlərin yaşadığı yer üzrə qəyyumluq və himayə orqanı tərəfindən~~ təsdiq olunmalıdır. Razılıq, həmçinin məhkəmədə övladlığa götürmə zamanı şifahi olaraq verilə bilər.[77]

122.2. Valideynlər övladlığa götürmə barədə məhkəmə qətnaməsi qəbul edilənədək öz uşaqlarını övladlığa vermək barədə razılığı geri götürə bilərlər.

122.3. Valideynlər öz uşaqlarını konkret şəxsə və ya konkret şəxsi göstərmədən övladlığa verməyə razılıq verə bilərlər.

122.4. ~~Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının vətəndaşı olan uşaq Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürüldüyü zaman məhkəməyə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq uşağın öz qohumları tərəfindən övladlığa götürülməsinin qeyri-mümkünlüyünü təsdiq edən sənədlər əlavə edilməklə müvafiq icra hakimiyyəti orqanına övladlığa götürmənin uşağın mənafeyinə uyğun olması barədə rəy təqdim edir. Uşağın ögey ata (ögey ana) tərəfindən övladlığa götürüldüyü hallarda bu cür rəy tələb olunmur.~~[78]

Maddə 123. **Valideynlərin razılığı olmadan övladlığa götürmə**

123.1. Valideynlər valideynlik hüquqlarından məhrum edilmişlərsə və bundan 1 il müddət keçmişsə və ya qanunla müəyyən olunmuş qaydada fəaliyyət qabiliyyəti olmayan, yaxud xəbərsiz itkin düşmüş hesab edilmişlərsə, övladlığa götürməyə onların razılığı tələb olunmur.

123.2. Valideynlər 6 aydan artıq müddətdə uşaqla birlikdə yaşamırlarsa, qəyyumluq və himayə orqanlarının xəbərdarlığına baxmayaraq, onun tərbiyəsində və ya saxlanmasında iştirak etməkdən boyun qaçırırlarsa, uşağa valideynlik diqqəti və qayğısı göstərmirlərsə, övladlığa götürmə onların razılığı olmadan da icra edilə bilər.

*Maddə 124.* ***Valideyn himayəsindən məhrum olan uşaqların övladlığa götürülməsinə razılıq***[79]

124.1. Qəyyumluqda (himayədə) olan uşaqların övladlığa götürülməsi üçün *bu Məcəllənin 124.3-cü maddəsi istisna olmaqla qəyyumlarının (himayəçilərin) notariat qaydasında təsdiq olunmuş* yazılı razılığı olmalıdır.[80]

124.2. Himayədar ailənin öhdəsində olan uşaqların övladlığa götürülməsi üçün onların himayədar valideynlərinin *həmin uşaqlarla bağlı fikri öyrənilir*.[81]

*124.3. Sosial xidmət müəssisələrində yerləşdirilmiş uşaqların övladlığa götürülməsi zamanı müəssisə rəhbərlərinin həmin uşaqlarla bağlı rəyi alınır.*[82]

124.4. Məhkəmə uşağın mənafeyini nəzərə alaraq bu Məcəllənin 124.1—124.3-cü maddələrində göstərilən şəxslərin razılığı olmadan *və ya fikri nəzərə alınmadan* da *müvafiq icra hakimiyyəti orqanının rəyi əsasında uşağın* övladlığa götürülməsi barədə qətnamə qəbul edə bilər.[83]

124.5. 10 yaşına çatmış uşaq övladlığa götürüldükdə, onun razılıq verməsi zəruridir. *7 yaşına çatmış uşaq övladlığa götürüldükdə, məhkəmələr tərəfindən onun fikri pedaqoji işçinin və ya psixoloqun iştirakı ilə öyrənilir və nəzərə alınır.*[84]

124.6. Övladlığa götürmə haqqında ərizə verilənə qədər uşaq övladlığa götürmək istəyənin ailəsində yaşamışsa və onu öz valideyni hesab edirsə, övladlığa götürmə övladlığa götürülən uşağın razılığı olmadan da aparıla bilər.

Maddə 125. **Övladlığa götürülənin soyadının, adının və atasının adının dəyişdirilməsi**

125.1. Övladlığa götürənin xahişi ilə övladlığa götürülən uşağa övladlığa götürənin soyadı və yeni ad verilir. Övladlığa götürən kişidirsə, uşağa ata adı onun adı ilə, övladlığa götürən qadındırsa, uşaq barəsində uşağın atasının hüquq və vəzifələrinin saxlandığı hallardan başqa, ata adı qadının göstərişi ilə verilir. Nikahda olmayan şəxs uşağı övladlığa götürdükdə, uşağın soyadı, adı və anasının (atasının) adı doğum haqqında *akt qeydində* həmin şəxsin göstərişi ilə yazılır.[85]

125.2. Övladlığa götürən ər-arvadın soyadları müxtəlif olduqda, onların razılığı ilə övladlığa götürülən uşağa ərin və ya arvadın soyadı verilir.

125.3. Övladlığa götürülən 10 yaşına çatmış uşağın soyadı, ata adı, habelə öz adı bu Məcəllənin 124.6-cı maddəsində nəzərdə tutulmuş hallardan başqa, yalnız onun razılığı ilə dəyişdirilə bilər. *Övladlığa götürülən 7 yaşına çatmış uşağın soyadı, ata adı, habelə öz adının dəyişdirilməsi barədə fikri öyrənilir.*[86]

125.4. Övladlığa götürülənə soyad və ata adı verilməsi, habelə onun adının dəyişdirilməsi övladlığa götürmə haqqında məhkəmə qətnaməsində göstərilir.

Maddə 126. **Övladlığa götürənlərin xahişi ilə övladlığa götürülənin doğulduğu yerin və tarixin dəyişdirilməsi**

126.1. Övladlığa götürmənin gizli saxlanması üçün övladlığa götürənin xahişi ilə övladlığa götürülənin doğulduğu yer, eləcə də onun doğum tarixi 3 aydan çox olmayaraq dəyişdirilə bilər.

126.2. Övladlığa götürülmüş uşağın doğum tarixi uşaq 1 yaşına çatana qədər dəyişdirilə bilər.

126.3. Övladlığa götürülmüş uşağın doğulduğu yerin və ya tarixin dəyişdirilməsi məhkəmə qətnaməsində göstərilir.

*126.4. 10 yaşından yuxarı övladlığa götürülmüş uşağın doğulduğu yerin dəyişdirilməsinə yalnız onun razılığı ilə yol verilir.*[87]

Maddə 127. **Övladlığa götürənlərin övladlığa götürülənin valideynləri kimi yazılması**

127.1. Məhkəmə övladlığa götürənlərin xahişi ilə onların övladlığa götürülənlərin valideynləri kimi *doğum haqqında akt qeydlərinə* yazılmasını qət edə bilər.[88]

127.2. Bu Məcəllənin 124.6-cı maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, övladlığa götürülən 10 yaşına çatmış uşaq barəsində bu cür qeydin yazılması üçün onun razılığı lazımdır.

127.3. Övladlığa götürənlərin valideyn kimi yazılması zəruriliyi barədə övladlığa götürmə haqında məhkəmə qətnaməsində göstərilir.

Maddə 128. **Tərbiyəçi öldükdə övladlığa götürmənin təsdiqi**

*Uşağı faktiki tərbiyə edən şəxs* öldükdə övladlığa götürmə faktı məhkəmə qaydasında müəyyən oluna bilər, yalnız o şərtlə ki, yetkinlik yaşına çatmayanlar ailədə doğma uşaq kimi qəbul edilsin, eləcə də övladlığa götürən sağlığında bu barədə məhkəməyə ərizə təqdim etmiş olsun.[89]

Maddə 129. **Valideynlərin ölümünə görə pensiya və ya müavinət hüququnun saxlanması**

Övladlığa götürülmə vaxtınadək ailə başçısını itirməyə görə pensiya, dövlət müavinəti almaq hüququna malik olan yetkinlik yaşına çatmayanlar bu hüququ övladlığa götürüldükdən sonra da saxlayırlar.

***Maddə 130. Övladlığa götürmənin gizli saxlanması***

*130.1. Övladlığa götürmənin sirri qanunla mühafizə olunur. Bu Məcəllənin 130.4 və 130.5-ci maddələrində nəzərdə tutulmuş hallar övladlığa götürmə sirrinin pozulması hesab olunmur.*

*130.2. Bu Məcəllənin 130.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, övladlığa götürənlərin, onlar öldükdə isə müvafiq icra hakimiyyəti orqanının razılığı olmadan övladlığa götürmə haqqında hər hansı məlumat vermək, habelə vətəndaşlıq vəziyyəti akt qeydlərindən bu barədə çıxarışlar, şəhadətnamələr və ya arayışlar vermək qadağan edilir.*[90]

*130.3. Övladlığa götürənin razılığı olmadan övladlığa götürmə sirrini yaymış şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.*

*130.4. Müvafiq icra hakimiyyəti orqanı uşağı övladlığa götürən şəxslərə 4-6 yaşında olan övladlığa götürülən uşağa psixoloqun və müvafiq icra hakimiyyəti orqanının nümayəndəsinin iştirakı ilə onun övladlığa götürüldüyü barədə məlumat verməsini tövsiyə etmək hüququna malikdir.*

*130.5. Övladlığa götürülmüş uşaq 10 yaşına çatdıqda onun arzusu ilə müvafiq icra hakimiyyəti orqanı onun övladlığa götürülməsi ilə bağlı məlumatları ona təqdim edir.*[91]

Maddə 131. **Övladlığa götürmənin ləğv edilməsi**

131.1. Övladlığa götürmənin ləğv olunması məhkəmə qaydasında həyata keçirilir.

131.2. Övladlığa götürmənin ləğv olunması barədə işə ~~qəyyumluq və himayə orqanının və~~ müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə baxılır.[92]

131.3. Məhkəmənin övladlığa götürməni ləğv etmək haqqında qətnaməsinin qüvvəyə mindiyi gündən övladlığa götürməyə xitam verilir.

*131.4. Övladlığa götürmənin ləğv olunması barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək ‘Elektron məhkəmə” informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*[93]

Maddə 132. **Övladlığa götürmənin ləğv edilməsinin əsasları**

132.1. Övladlığa götürmə aşağıdakı hallarda ləğv edilir:

132.1.1. övladlığa götürənlər onlara həvalə edilmiş valideynlik vəzifələrini yerinə yetirmədikdə;

132.1.2. övladlığa götürənlər valideynlik hüquqlarından sui-istifadə etdikdə;

132.1.3. övladlığa götürənlər övladlığa götürülən uşağa qəddar münasibət bəslədikdə;

132.1.4. övladlığa götürənlər xroniki alkoqolik və narkoman olduqda.

132.2. Məhkəmə uşağın rəyini nəzərə almaqla onun mənafeyi naminə digər əsaslarla da övladlığa götürməni ləğv edə bilər.

Maddə 133. **Övladlığa götürmənin ləğv olunmasını tələb etmək hüququ olanlar**

Övladlığa götürmənin ləğv olunmasını övladlığa götürənlərin özləri , uşağın valideynləri, övladlığa götürülən 14 yaşına çatmış uşaq və müvafiq icra hakimiyyəti orqanı tələb edə bilər.

Maddə 134. **Övladlığa götürmənin və övladlığa götürmənin ləğv olunmasının hüquqi nəticələri**

134.1. Övladlığa götürülənlər və onların övladları övladlığa götürənlərə və onların qohumlarına münasibətdə, eləcə də övladlığa götürənlər və onların qohumları övladlığa götürülənlərə (onların övladlarına) münasibətdə öz şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələrinə görə mənşəcə qohumlara bərabər tutulurlar.

134.2. Övladlığa götürülən uşaqlar öz valideynlərinə (qohumlarına) münasibətdə *bu Məcəllənin 129-cu maddəsində nəzərdə tutulan hallar istisna olmaqla* şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələrini itirirlər.[94]

134.3. Uşaq övladlığa bir nəfər tərəfindən götürüldükdə əgər o, kişidirsə,—ananın arzusu ilə, əgər qadındırsa—atanın arzusu ilə, şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri saxlanıla bilər.

134.4. Uşağın valideynlərindən biri öldükdə, əgər bunu onun mənafeyi tələb edirsə, ölmüş valideynin atasının və ya

anasının (uşağın babasının və ya nənəsinin) xahişi ilə ölənin qohumlarına münasibətdə şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri saxlanıla bilər. Ölən valideynin qohumlarının övladlığa götürülən uşaqla ünsiyyətdə olmaq hüququ bu Məcəllənin 62-ci maddəsinə uyğun həyata keçirilir.

134.5. Uşağın övladlığa götürülməsi haqqında məhkəmənin qətnaməsində övladlığa götürülənin valideynlərindən biri və ya ölmüş valideynin qohumları ilə münasibətlərin saxlanması barədə qeyd olunur.

~~134.6. Bu Məcəllənin 128.1 və 128.2-ci maddələri ilə nəzərdə tutulmuş hüquqi nəticələri övladlığa götürən şəxslərin uşağın doğum haqqında akt qeydində onun valideynləri qismində yazılmasından asılı olmadan yaranır.~~[95]

134.7. Məhkəmə övladlığa götürülməni ləğv etdikdə, övladlığa götürülmüş uşağın və övladlığa götürənlərin (onların qohumlarının) qarşılıqlı hüquq və vəzifələrinə xitam verilir. Uşağın mənafeyi bunu tələb edərsə, onunla valideynləri (onun qohumları) arasında qarşılıqlı hüquq və vəzifələr bərpa olunur.

134.8. Övladlığa götürmə ləğv olunduqda, uşaq məhkəmənin qətnaməsi ilə valideynlərə qaytarılır.

134.9. Bu halda, uşağın valideynləri olmadıqda, yaxud uşağın valideynlərinə qaytarılması onun mənafeyinə ziddirsə, uşaq müvafiq icra hakimiyyəti orqanının himayəsinə verilir.

134.10. Məhkəmə uşağa övladlığa götürülərkən verilən ad və soyadın saxlanıb-saxlanılmamasını *bu Məcəllənin 125.3-cü maddəsi ilə müəyyən edilmiş tələblər nəzərə alınmaqla* həll edir.[96]

~~134.11. 10 yaşı tamam olmuş uşağın adı və soyadı onun öz razılığı ilə dəyişdirilə bilər.~~[97]

134.12. Məhkəmə uşağın mənafeyinə uyğun olaraq, bu Məcəllənin 76—78-ci maddələrində qeyd edilən vəsaitin keçmiş övladlığa götürəndən tutulub uşağa verilməsi haqqında qətnamə qəbul edə bilər.

134.13. Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi ləğv edildikdə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının vətəndaşı olan uşağın Azərbaycan Respublikasının ərazisinə qaytarılması üçün tədbirlərin görülməsi və ya övladlığa götürənin vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin qanunvericiliyinə uyğun yerləşdirilməsi məqsədilə övladlığa götürənin vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin səlahiyyətli orqanına məlumat verir. Azərbaycan Respublikasının ərazisinə qaytarılan uşaq bu Məcəllənin 114-116-cı maddələrinə uyğun olaraq yenidən uçota alınır və müəyyən olunmuş qaydada yerləşdirilir.[98]

Maddə 135. **Övladlığa götürmənin ləğvinin yolverilməzliyi**

Uşaq yetkinlik yaşına çatdıqda övladlığa götürmənin ləğvinə yol verilmir. Lakin övladlığa götürən, övladlığa götürülən və övladlığa götürülənin valideynləri (valideynlər sağdırsa, valideynlik hüquqlarından məhrum olunmamışdırsa, məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilməmişdirsə) arasında qarşılıqlı razılığa əsasən övladlığa götürmənin ləğvinə yol verilir.

*20-ci fəsil*

**Uşaqlar üzərində qəyyumluq və himayə**

Maddə 136. **Üzərində qəyyumluq və himayə təyin edilən uşaqlar**

136.1. Qəyyumluq və himayə valideynlərini itirmiş uşaqlara (bu Məcəllənin 114.1-ci maddəsi) onların saxlanması, tərbiyə olunması, təhsil alması, habelə onların hüquq və vəzifələrinin qorunması məqsədilə müəyyən olunur.

136.2. Qəyyumluq 14 yaşınadək, himayəçilik 14 yaşından 18 yaşınadək olan uşaqlar üzərində təyin edilir.

136.3. Uşaqlara qəyyumluq və himayə təyin edilməsi və bunun xitamı Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 137. **Uşaqların qəyyumu (himayəçisi)**

137.1. Yalnız yetkinlik yaşına çatmış və tam fəaliyyət qabiliyyəti olan şəxslər qəyyum (himayəçi) təyin edilirlər.

137.2. Uşaqlara qəyyum (himayəçi) təyin edilərkən qəyyumun (himayəçinin) əxlaqı və başqa cəhətləri, onun qəyyumluq (himayə) vəzifəsini yerinə yetirə bilməsi, onun və ailəsinin uşaqla ünsiyyəti və münasibəti, habelə mümkünsə, uşağın öz arzusu nəzərə alınmalıdır.

137.3. Alkoqolik və narkomanlar, qəyyumluq (himayə) vəzifələrini icra etməkdən kənarlaşdırılmış, valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, keçmiş övladlığa götürənlər, əgər onların təqsiri üzündən övladlığa götürmə ləğv olunmuşsa və səhhətinə görə uşağı tərbiyə etmək vəzifəsini həyata keçirə bilməyən şəxslər (bu Məcəllənin 120.1.1—120.1.5-ci maddələri) qəyyum (himayəçi) ola bilməzlər.

Maddə 138. ***Sosial xidmət müəssisələrində* yerləşən uşaqlar üzərində qəyyumluq (himayə) təyin edilməsi**[99]

138.1. Tam dövlət himayəsində olmaqla *sosial xidmət müəssisələrində* yerləşən uşaqlara qəyyum (himayəçi) təyin olunmur. Bu vəzifə həmin müəssisələrin rəhbərliyinə həvalə edilir.[100]

138.2. Uşaqların müvəqqəti olaraq belə müəssisələrə yerləşdirilməsi qəyyumların (himayəçilərin) hüquq və vəzifələrini məhdudlaşdırmır.

138.3. Qəyyumluq və himayə orqanları uşağın bu Məcəllənin 138.1-ci maddəsində göstərilən müəssisələrdə saxlanmasına, tərbiyə və təhsilinə daimi nəzarət edir.

138.4. Bu Məcəllənin 138.1-ci maddəsində göstərilən müəssisələrin məzunlarının hüquqlarının qorunması qəyyumluq və himayə orqanına həvalə edilir.

Maddə 139. **Qəyyumluqda (himayədə) olan uşaqların hüquqları**

139.0. Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, qəyyumluqda (himayədə) olan uşaqlar, aşağıdakı hüquqlara malikdirlər:

139.0.1. qəyyumun (himayəçinin) ailəsində tərbiyə almaq, onlardan qayğı almaq, qəyyum (himayəçi) ilə birlikdə yaşamaq;

139.0.2. onların saxlanması, tərbiyəsi, təhsili, hərtərəfli inkişafı və insan ləyaqətinə hörmət edilməsi üçün şəraitlə təmin olunmaq;

139.0.3. onlara düşən pensiya, müavinət, aliment və s. sosial ödənişləri almaq;

139.0.4. yaşadıqları ev (mənzil) üzərində mülkiyyət hüququnu və ya ondan istifadə etmək hüququnu saxlamaq, ev (mənzil) olmazsa, mənzil qanunvericiliyinə uyğun mənzil almaq;

139.0.5. bu Məcəllənin 51-ci maddəsinə uyğun qəyyumun (himayəçinin) sui-istifadə hərəkətlərindən müdafiə olunmaq;

139.0.6. bu Məcəllənin 50-ci və 52-ci maddələri ilə nəzərdə tutulmuş hüquqlardan istifadə etmək.

Maddə 140. **Valideyn himayəsindən məhrum olub *Sosial xidmət müəssisələrində* qalan uşaqların hüquqları**[101]

140.1. Valideyn himayəsindən məhrum olub, *sosial xidmət müəssisələrində* qalan uşaqlar aşağıdakı hüquqlara malikdirlər;[102]

140.1.1. saxlanılmaq, tərbiyə və təhsil almaq, hərtərəfli inkişaf etmək, ləyaqətinə hörmət görmək və maraqlarını təmin etmək;

140.1.2. onlara düşən pensiya, müavinət və başqa sosial ödənişləri almaq;

140.1.3. mənzil (ev) sahəsi üzərində mülkiyyət hüququnu, mənzildən (evdən) istifadə etmək hüququnu saxlamaq, mənzili (evi) olmazsa, mənzil qanunvericiliyinə uyğun mənzil sahəsi almaq;

140.1.4. qeyd edilən müəssisələrdən qayıtdıqdan sonra Azərbaycan Respublikasının əmək qanunvericiliyinə uyğun olaraq işə düzəlməkdə güzəştlərdən istifadə etmək.

140.2. Valideyn himayəsini itirmiş, göstərilən təşkilatların himayəsində olan uşaqlar bu Məcəllənin 50—52-ci maddələrində göstərilən hüquqlara malikdirlər.

Maddə 141. **Uşağın qəyyumunun (himayəçisinin) hüquq və vəzifələri**

141.1. Uşağı tərbiyə etmək, onun sağlamlığının, fiziki və psixi, mənəvi və əxlaqi inkişafının qeydinə qalmaq uşağın qəyyumunun (himayəçisinin) hüquq və vəzifəsidir.

141.2. Qəyyumluqda (himayədə) olan uşağın qəyyumunun (himayəçisinin) qəyyumluq və himayə orqanlarının tövsiyələrini və uşağın rəyini nəzərə almaqla, onun tərbiyə üsullarını sərbəst müəyyənləşdirmək hüququ vardır. Qəyyum (himayəçi) uşağın rəyinə uyğun olaraq onun ümumi orta təhsil alması üçün təhsil müəssisəsini və təhsilin formasını seçmək hüququna malikdir, uşağın ümumi orta təhsil almasını təmin etməlidir.

141.3. Qəyyumluqda (himayədə) olan uşağı hər hansı təşkilat, şəxs və ya yaxın qohum qanuni əsas olmadan saxlayarsa, qəyyumun (himayəçinin) məhkəmə yolu ilə uşağın qaytarılmasını tələb etmək hüququ var.

141.4. Uşağın valideynləri, yaxın qohumları ilə ünsiyyət uşağın maraqlarına cavab vermədiyi hallardan başqa, qəyyumun (himayəçinin) uşağın onlarla ünsiyyət saxlamasına icazə verməmək hüququ yoxdur.

141.5. Qəyyumun (himayəçinin) mülki hüquq və vəzifələri Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilir.

141.6. Uşağa qəyyumluq (himayəçilik) vəzifəsi təmənnasız yerinə yetirilməlidir. Hər ay uşağın qəyyumuna (himayəçisinə) onun saxlanması üçün dövlət tərəfindən təyin edilmiş maddi vəsait verilir.

Maddə 142. **Himayədar ailənin yaranması**

142.1. Himayədar ailə *uşağın* tərbiyə olunmaq üçün *verilməsinə dair müqavilə* əsasında yaranır. Bu müqavilə qəyyumluq və himayə orqanı ilə himayədar valideynlər (uşağı tərbiyə olunmaq üçün ailəyə götürmək arzusunda olan ər-arvad və ya ayrı-ayrı vətəndaşlar) arasında bağlanır. Himayədar ailəyə tərbiyə üçün yalnız yetkinlik yaşına çatmamış uşaq və yalnız müqavilə ilə nəzərdə tutulmuş müddətə verilə bilər.[103]

142.2. Himayədar ailə haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur.

Maddə 143. **Uşağın ailəyə tərbiyə edilmək üçün verilməsi barədə müqavilə**

143.1. Uşağın ailəyə tərbiyə edilmək üçün verilməsi barədə müqavilədə hökmən onun yaşayış, tərbiyə və təhsil şəraiti, himayədar valideynlərin hüquq və vəzifələri, qəyyumluq və himayə orqanının himayədar ailə qarşısında vəzifələri, bu müqavilənin ləğv olunmasının əsasları və nəticələri göstərilir. Himayəçi valideynlərin əməyinə görə haqqın miqdarı və tərbiyə üçün götürdükləri uşaqların sayından asılı olmaqla onlara verilən imtiyazlar qanunvericiliklə müəyyən edilir.

143.2. Uşağın tərbiyə üçün ailəyə verilməsi barədə müqavilə üzürlü səbəb olarsa (xəstəlik, ailə və əmlak vəziyyətinin dəyişməsi, uşaqla qarşılıqlı anlaşmanın olmaması, uşaqlar arasında münaqişəli vəziyyət) himayədar valideynlərin təşəbbüsü ilə, eləcə də uşağın ailədə tərbiyəsinə, təhsilinə və sağlamlığına əlverişsiz şəraitin olduğu və ya uşaq öz ailəsinə qaytarıldığı, yaxud övladlığa götürüldüyü hallarda qəyyumluq və himayə orqanının təşəbbüsü ilə vaxtından əvvəl pozula bilər.

Maddə 144. **Himayədar valideynlər**

144.1. Aşağıdakılar istisna olmaqla, yetkinlik yaşına çatmış, hər iki cinsdən olan şəxslər himayədar valideyn ola bilər.
144.1.2. məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya fəaliyyət qabiliyyəti məhdud hesab edilən şəxslər;
144.3. məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum olunan və ya valideynlik hüquqları məhdudlaşdırılan şəxslər;
144.1.4. üzərinə qanunla qoyulan qəyyumluq (himayəçilik) vəzifələrini lazımi qaydada yerinə yetirmədiyi üçün həmin vəzifələrdən kənarlaşdırılan şəxslər;
144.1.5. keçmiş övladlığa götürülənlər, əgər övladlığa götürmə onların təqsiri üzündən məhkəmə tərəfindən ləğv olunmuşsa;
144.1.6. səhhətinə görə uşağı tərbiyə etmək vəzifəsini həyata keçirə bilməyən şəxslər.
144.2. Himayədar valideynləri bu Məcəllənin 137.2-ci maddəsi ilə nəzərdə tutulmuş tələblərə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı seçir.
144.3. Himayədar valideynlər tərbiyə olunmaq üçün qəbul olunmuş uşaqlara münasibətdə qəyyumun (himayəçinin) hüquq və vəzifələrinə malik olurlar.

Maddə 145. **Himayədar ailənin tərbiyəsinə verilmiş uşaqlar və onların saxlanması**

145.1. Valideyn himayəsindən məhrum olmuş, o cümlədən *sosial xidmət müəssisələrində* olan uşaqlar tərbiyə edilmək üçün himayədar ailələrə verilə bilərlər.[104]
145.2. Himayədar ailələrə verilən uşaqların əvvəlcədən seçilməsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla uşağı ailəyə götürmək istəyən şəxslər tərəfindən həyata keçirilir. Uşağın mənafeyinin tələb etdiyi hallar istisna olmaqla qardaş və bacıların ayrılmasına yol verilmir.
145.3. Uşağın himayədar ailəyə verilməsi onun *fikri* nəzərə alınmaqla həyata keçirilir. 10 yaşı tamam olmuş uşaq isə yalnız öz razılığı alındıqdan sonra himayədar ailəyə verilə bilər.[105]
145.4. Himayədar ailəyə verilmiş uşaq ona düşən pensiya, aliment, müavinət və başqa sosial ödənişlər almaq, mənzil sahəsi üzərində mülkiyyətçi olmaq, ondan istifadə etmək, mənzil sahəsi olmazsa, mənzil qanunvericiliyinə uyğun olaraq mənzil sahəsi almaq hüququna malikdir.
145.5. Himayədar ailəyə verilən uşaqlar bu Məcəllənin 50—52-ci maddələrində nəzərdə tutulmuş hüquqlara malikdirlər.
145.6. Qanunvericilikdə müəyyən edilmiş qaydada himayədar ailəyə verilən uşağın hər birinə hər ay maddi müavinət verilir.
145.7. Himayədar ailəyə verilən uşaqların normal saxlanmasına, tərbiyə və təhsilinə nəzarət etmək müvafiq icra hakimiyyəti orqanının borcudur.

## Yeddinci bölmə

## Ailə qanunvericiliyinin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə ailə münasibətlərinə tətbiqi

Maddə 146. **Azərbaycan Respublikası ərazisində nikahın bağlanması**

146.1. Azərbaycan Respublikasında nikahın bağlanmasının forma və qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.
146.2. Azərbaycan Respublikasının ərazisində əcnəbi şəxs üçün nikahın bağlanma şərtləri onun ölkəsinin qanunvericiliyi ilə və bu Məcəllənin 12-ci maddəsindəki tələblərə əməl olunmaqla müəyyən edilir.
146.3. Nikah bağlayan şəxsin vətəndaşlığı yoxdursa, nikahın bağlanması şərtləri onun daimi yaşadığı ölkənin qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 147. **Diplomatik nümayəndəliklərdə və konsulluq idarələrində nikah bağlanması**

147.1. Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşları arasında nikah Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluq idarələrində bu Məcəllənin tələblərinə uyğun olaraq bağlanır.
147.2. Xarici ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində əcnəbilər arasında bağlanan nikah Azərbaycan Respublikasında etibarlı hesab edilir.

Maddə 148. **Azərbaycan Respublikasından kənarda bağlanmış nikahın tanınması**

148.1. Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşları arasında, Azərbaycan Respublikasının vətəndaşları ilə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında həmin xarici ölkənin qanunvericiliyinə əməl etməklə bağlanan nikah, bu Məcəllənin 12-ci maddəsində nəzərdə tutulan hallar (nikahın bağlanmasına mane olan hallar) olmadıqda, Azərbaycan Respublikasında etibarlı hesab edilir.
148.2. Azərbaycan Respublikasından kənarda əcnəbilər arasında onların ölkəsinin qanunvericiliyinə əməl etməklə bağlanan nikah Azərbaycan Respublikasında tanınır.

Maddə 149. **Azərbaycan Respublikası ərazisində və Azərbaycan Respublikasından kənarda bağlanmış nikahın etibarsız sayılması**

Azərbaycan Respublikası ərazisində və Azərbaycan Respublikasından kənarda bağlanmış nikahın etibarsız sayılması bu Məcəllənin 146 və 148-ci maddələrinə uyğun olaraq nikahın bağlanmasında tətbiq olunmuş qanunvericiliklə müəyyən edilir.

Maddə 150. **Nikahın pozulması**

150.1. Azərbaycan Respublikasından kənarda Azərbaycan Respublikası vətəndaşları ilə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında, eləcə də Azərbaycan Respublikasının vətəndaşları arasında bağlanan nikahın Azərbaycan Respublikasında pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

150.2. Azərbaycan Respublikasından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşı Azərbaycan Respublikasından kənarda yaşayan əri (arvadı) ilə bağladığı nikahı onun vətəndaşlığından asılı olmayaraq Azərbaycan Respublikasının məhkəmələrində poza bilər. Nikahın müvafiq icra hakimiyyəti orqanında pozulmasına Azərbaycan Respublikasının qanunvericiliyi ilə yol verilirsə, həmin nikah Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində pozula bilər.

Maddə 151. **Ər-arvadın şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri**

151.1. Ər-arvadın şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri ərazisində birgə yaşadıqları ölkənin qanunvericiliyi ilə müəyyənləşir, həmin ölkədə onların birgə yaşayış yeri olmadıqda, ər-arvad axırıncı dəfə hansı ölkənin ərazisində birgə yaşayıblarsa, həmin ölkənin qanunvericiliyi ilə müəyyən edilir. Birgə yaşayış yeri olmayan ər-arvadın şəxsi qeyri-əmlak və əmlak hüquq və vəzifələri Azərbaycan Respublikası ərazisində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

151.2. Ər-arvadın ümumi vətəndaşlığı və birgə yaşayış yerləri olmazsa, onların aliment tutulması barədə sazişdəki və ya nikah müqaviləsindəki hüquq və vəzifələrinin müəyyənləşdirilməsi üçün tətbiq olunan qanunvericiliyi özləri seçə bilərlər. Ər-arvad belə razılıq əldə etməyiblərsə, aliment tutulması barədə sazişə və nikah müqaviləsinə bu Məcəllənin 151.1-ci maddəsi tətbiq edilir.

Maddə 152. **Atalığın (analığın) müəyyənləşdirilməsi və buna dair mübahisə açılması**

152.1. Atalığın (analığın) müəyyənləşdirilməsi və buna dair mübahisə açılması üçün uşağın anadan olmağa görə və vətəndaşı sayıldığı ölkənin qanunvericiliyi tətbiq edilir.

152.2. Azərbaycan Respublikasında atalığın (analığın) müəyyənləşdirilməsi və buna dair mübahisə açılması qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə atalığın (analığın) müvafiq icra hakimiyyəti orqanında müəyyənləşdirilməsinə yol verilirsə, uşağın valideynləri Azərbaycan Respublikasında yaşamırlarsa və onlardan heç olmazsa biri Azərbaycan Respublikasının vətəndaşıdırsa, onların atalığı (analığı) müəyyənləşdirmək üçün Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluq idarəsinə müraciət etmək hüququ var.

Maddə 153. **Valideynlərin və uşaqların hüquq və vəzifələri**

Valideynlərin və uşaqların hüquq və vəzifələri, o cümlədən valideynlərin uşağı saxlamaq vəzifəsi onların birgə yaşadıqları ölkənin qanunvericiliyinə uyğun müəyyənləşdirilir. Əgər uşaqlarla ata-ananın birgə yaşayış yeri yoxdursa, uşaqların və ata-ananın hüquq və vəzifələri uşağın vətəndaşı olduğu ölkənin qanunvericiliyi ilə müəyyənləşdirilir. Aliment öhdəliklərinə və valideynlərlə uşaqlar arasında digər münasibətlərə, iddiaçının tələbi ilə, ərazisində uşaq daimi yaşayan ölkənin qanunvericiliyi tətbiq oluna bilər.

Maddə 154. **Yetkinlik yaşına çatmış şəxslərin və başqa ailə üzvlərinin aliment vəzifələri**

Ailə üzvlərinin aliment vəzifələri ərazisində birgə yaşadıqları ölkənin qanunvericiliyi ilə müəyyənləşdirilir. Birgə yaşayış yeri olmayan ailədə iddiaçı yaşadığı ölkənin qanunvericiliyinə uyğun olaraq aliment alır.

Maddə 155. **Övladlığa götürmə**

155.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının vətəndaşı olan uşağı övladlığa götürmə və ya övladlığa götürmənin ləğvi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

155.2. Azərbaycan Respublikasının ərazisində əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən Azərbaycan Respublikasının vətəndaşı olan uşaq, övladlığa götürənin ölkəsinin (daimi yaşadığı ölkənin) qanunvericiliyinə uyğun olaraq övladlığa götürüldükdə, həmin ölkənin qanunvericiliyi ilə yanaşı, bu Məcəllənin 66.6-cı, *117-135-ci* maddələrinə də əməl olunmalıdır.[106]

155.3. Azərbaycan Respublikasının ərazisində xarici vətəndaş olan uşaq Azərbaycan Respublikasının vətəndaşı, *habelə əcnəbi və vətəndaşlığı olmayan şəxs* tərəfindən övladlığa götürüldükdə, buna uşağın qanuni nümayəndəsinin və uşağın vətəndaşı olduğu dövlətin səlahiyyətli orqanının, eləcə də həmin dövlətin qanunvericiliyi ilə tələb olunduqda uşağın özünün razılığını almaq zəruridir.[107]

155.4. Uşağın Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş hüquqları övladlığa götürmə nəticəsində pozula bilərsə, övladlığa götürmə, övladlığa götürənin vətəndaşlığından asılı olmayaraq, həyata keçirilə bilməz, həyata keçirilmiş övladlığa götürmə isə məhkəmə qaydasında ləğv olunmalıdır.

155.5. Övladlığa götürənin vətəndaşı olduğu dövlətin səlahiyyətli orqanı tərəfindən Azərbaycan Respublikasının xaricdə yaşayan uşağını övladlığa götürməsi o şərtlə Azərbaycan Respublikasında etibarlı hesab edilir ki, buna Azərbaycan Respublikasında müvafiq icra hakimiyyəti orqanından əvvəlcədən müvafiq razılıq alınsın.[108]

Maddə 156. **Xarici ölkələrin ailə hüquq normalarının məzmununun müəyyən edilməsi**

156.1. Xarici ölkələrin ailə hüquq normaları tətbiq edilərkən məhkəmə və ya müvafiq icra hakimiyyəti orqanı, yaxud başqa müvafiq təşkilatlar bu normaların məzmununu müvafiq xarici dövlətdəki rəsmi şərhi tətbiqi təcrübəsinə uyğun olaraq müəyyənləşdirir.

156.2. Bu normaların məzmununu müəyyənləşdirmək məqsədi ilə məhkəmə, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqan və sair orqanlar müvafiq icra hakimiyyəti orqanına və başqa orqanlara (ekspertlərə) müraciət edə bilərlər.[109]

156.3. Maraqlı tərəflər öz tələblərini əsaslandırmaq üçün istinad etdikləri xarici ailə normalarının məzmununu təsdiq edən sənədləri məhkəməyə və müvafiq icra hakimiyyəti orqanlarına təqdim etmək hüququna malikdirlər.

156.4. Xarici ölkələrin ailə hüquq normalarının məzmunu bu Məcəllənin 156.1—156.3-cü maddələrinə uyğun müəyyən edilməzsə, Azərbaycan Respublikasının qanunvericiliyi tətbiq edilir.

Maddə 157. **Xarici ölkələrin qanunvericiliyinin tətbiqinə məhdudiyyətlər**

Xarici ölkələrin Azərbaycan Respublikasının hüquq qaydasının əsaslarına zidd olan hüquq normaları Azərbaycan Respublikasında tətbiq edilmir. Bu halda Azərbaycan Respublikasının qanunvericiliyi tətbiq edilir.

## Səkkizinci bölmə

## Vətəndaşlıq vəziyyəti aktları

*21-ci fəsil*

### Ümumi qaydalar

Maddə 158. **Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması**

158.1. Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması həm dövlət mənafeyi və ictimai mənafe üçün, həm də vətəndaşların şəxsi və əmlak hüquqlarının qorunması məqsədilə aparılır. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı haqqında məlumatlar ailə həyatına dair məlumat hesab olunur və onların əldə edilməsinə məhdudiyyət qoyulur. Bu məlumatlar yalnız qanunvericiliklə nəzərdə tutulmuş hallarda və bu məlumatı əldə etmək hüququna malik şəxslərə təqdim edilir.[110]

158.2. Doğum, ölüm, nikahın bağlanması, nikahın pozulması, övladlığa götürmə, atalığın müəyyən edilməsi, adın, ata adının və soyadın dəyişdirilməsi müvafiq icra hakimiyyəti orqanlarında qeydiyyatdan keçirilməlidir.

158.3. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, bir qayda olaraq, müvafiq icra hakimiyyəti orqanlarının yerləşdiyi binada (otaqda) həyata keçirilir. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanlarının yerləşdiyi binalardan (otaqlardan) kənarda da aparıla bilər.[111]

Maddə 159. **Vətəndaşlıq vəziyyəti aktlarını qeydə alan orqanlar**

159.1. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı*, o cümlədən doğumun, atalığın müəyyən edilməsinin və ölümün elektron qaydada qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)* tərəfindən aparılır. [112]

159.2. Müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqan (qurum) fəaliyyət istiqamətinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi vasitəsilə* doğumun, nikahın bağlanmasının, nikahın pozulmasının, övladlığa götürmənin, atalığın müəyyən edilməsinin, adın, ata adının və soyadının dəyişdirilməsinin, ölümün qeydiyyatını aparır, vətəndaşlıq vəziyyəti *akt qeydlərində dəyişiklik edir* və ləğv edir, itmiş *akt qeydlərini* bərpa edir, akt kitablarını saxlayır və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələr *və ya arayışlar* verirlər.[113]

Maddə 160. **Akt kitabları, vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınma qaydaları**

160.1. Vətəndaşlıq vəziyyəti *akt qeydlərində* dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən əsas müddəalar, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları, akt kitablarının saxlanması qaydası və müddətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. [114]

160.2. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Maddə 161. **Vətəndaşlıq vəziyyəti *akt qeydində dəyişiklik edilməsi***[115]

161.1. Vətəndaşlıq vəziyyəti *akt qeydində ərizə əsasında dəyişiklik* ~~*edilməsi*~~ edilməsi, kifayət qədər əsaslar olduqda və aidiyyəti şəxslər arasında mübahisə olmadıqda, ərizə verən *şəxsin seçdiyi, məhkəmə qətnaməsi əsasında isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə* müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqan (qurum)* tərəfindən həyata keçirilir.[116]

161.2. Müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqanın (qurumun) akt qeydində dəyişiklik etməkdən imtinasından* inzibati qaydada və (və ya) məhkəməyə şikayət edilə bilər.[117]

161.3. Aidiyyəti şəxslər arasında mübahisə olduqda *akt qeydində dəyişiklik* məhkəmənin qətnaməsi əsasında aparılır.[118]

*161.4. Vətəndaşlıq vəziyyəti akt qeydində dəyişiklik edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək ‘Elektron məhkəmə” informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*[119]

Maddə 162. **Vətəndaşlıq vəziyyəti *akt qeydinin* bərpası** [120]

162.1. Vətəndaşlıq vəziyyəti *akt* qeydinin bərpası bu cür qeydlərin həqiqətən olduğunu təsdiq edən sənədlər əsasında, ərizə verənlərin *seçdiyi yer üzrə* müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqan (qurum)* tərəfindən icra edilir.[121]

162.2. *İtmiş akt qeydinin* müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqan (qurum)* tərəfindən bərpası mümkün olmadıqda, vətəndaşlıq vəziyyəti aktının qeydiyyatı faktı məhkəmə qaydası ilə müəyyən edilir.[122]

*162.3. Vətəndaşlıq vəziyyəti akt qeydlərinin bərpa edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək ‘Elektron məhkəmə’ informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*[123]

Maddə 163. **Vətəndaşlıq vəziyyəti *akt* qeydlərinin ləğvi** [124]

163.1. Vətəndaşlıq vəziyyəti aktlarının ilkin qeydlərinin ləğv olunması məhkəmənin qətnaməsi əsasında, bərpa və ya təkrar tərtib edilmiş qeydlərin ləğv olunması məhkəmənin qətnaməsi əsasında və ya müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqan (qurum)* tərəfindən icra edilir.[125]

163.2. Bu Məcəllənin 24.1-ci maddəsi ilə nəzərdə tutulmuş hallarda nikahın pozulması haqqındakı qeydin ləğv olunması nikahı pozmuş müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqan (qurum)* tərəfindən icra edilir.

*163.3. Vətəndaşlıq vəziyyəti akt qeydlərinin ləğv edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək ‘Elektron məhkəmə’ informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*[126]

Maddə 164. **Vətəndaşlıq vəziyyəti aktlarının qeyd olunması**

164.1. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı, qeyd olunmalı faktları və ərizə verənlərin şəxsiyyətini təsdiq edən sənədlər *əsasında* aparılır. *Bu sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizə çidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizə çi tərəfindən təmin edilir.*[127]

164.2. Vətəndaşlıq vəziyyəti aktlarının qeyd edilməsi üçün lazım olan sənədlərin siyahısı vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydasına əsasən müəyyən olunur.

164.3. Vətəndaşlıq vəziyyəti aktlarının *qeydiyyatının elektron qaydada həyata keçirildiyi hallar istisna edilməklə*, qeydiyyat kitabına yazılan hər bir qeyd ərizə verənlərə oxunmalı, onlar tərəfindən və qeyd aparan vəzifəli şəxs tərəfindən imzalanmalı, möhürlə təsdiq edilməlidir.[128]

*164.3-1. Qeydiyyatı elektron qaydada aparılan vətəndaşlıq vəziyyəti akt qeydləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vəzifəli şəxsinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilir.*[129]

*164.3-2. Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını aparan vəzifəli şəxs müvafiq qeydin həmin qeyd üzrə razılığı tələb olunan digər şəxslərlə razılaşdırılmasının yoxlanılmasını təmin edir. Nikahda olan valideynlərdən doğulmuş uşağın doğumunun qeydə alınması üçün valideynlərdən biri müraciət edərsə, bu halda güman edilir ki, o digərinin razılığı ilə hərəkət edir. Müraciət edən şəxs tərəfindən yalan məlumat təqdim edilməsi gələcəkdə həmin akt qeydinin ləğvi üçün əsasdır.*

164.4. Vətəndaşlıq vəziyyəti aktının qeyd olunduğu haqqında ərizə verən şəxslərə müvafiq şəhadətnamə verilir.

*164.5. Vətəndaşlıq vəziyyəti akt qeydi ‘Elektron məhkəmə’ informasiya sistemindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülmüş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda, akt qeydi üzrə şəhadətnamə və ya arayış barəsində akt qeydi tərtib edilmiş şəxs müraciət etdikdə verilir.*[130]

Maddə 165. **Dövlət rüsumu**

Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasına *(qeydiyyat "Elektron məhkəmə' informasiya sistemi vasitəsi ilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsinə)* görə müraciət etmiş şəxslər dövlət rüsumu ödəyirlər. Dövlət rüsumunun ödənilməsinin qaydası və miqdarı, habelə dövlət rüsumunun ödənilmədiyi hallar "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.[131]

*22-ci fəsil*

**Doğumun qeydə alınması**

Maddə 166. **Doğumun qeydə alınması qaydası**

*166.1. Doğum bu barədə məlumat verən şəxsin seçdiyi, doğum faktı məhkəmə qaydasında müəyyən edildikdə isə məhkəmə qətnaməsinin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.*[132]

166.2. Doğumun qeydə alınması üçün valideynlər və ya onlardan biri, valideynlərin müəyyən səbəblərə görə (xəstə olduqda, öldükdə və sair) müraciət etməsi mümkün olmadıqda isə qohumlar, qonşular, uşağın doğulduğu tibb müəssisəsinin müdiriyyəti və yaxud başqa şəxslər ~~müvafiq icra hakimiyyəti orqanına~~ müraciət edir.[133]

*166.2-1. Doğum faktının müəyyən edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək 'Elektron məhkəmə' informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*[134]

166.3. Doğum haqqında məlumat tibb müəssisəsi tərəfindən dərhal müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqana (quruma)*, müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqan (qurum)* tərəfindən isə məlumat informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqanın (qurumun)* informasiya sisteminə ötürülür.[135]

166.4. Doğum haqqında məlumatın müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqana (quruma)* dərhal ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə tibb müəssisəsi, həmin məlumatın məlumat informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqanın (qurumun)* informasiya sisteminə ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə müvafiq icra hakimiyyəti *orqanının müəyyən etdiyi orqan (qurum)*, habelə üzrlü səbəblər olmadan doğumun qeydə alınması üçün bu Məcəllənin 167-ci maddəsində nəzərdə tutulmuş müddətdə müraciət olunmamasına görə uşağın valideynləri *qanunla* müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

166.5. Valideynlərin arzusu ilə doğumun qeydiyyatı təntənəli şəraitdə aparıla bilər.[136]

Maddə 167. **Doğum haqqında məlumatın verilməli olduğu müddət**

Doğum haqqında məlumat uşağın doğulduğu gündən ən geci 1 ay ərzində, uşaq ölü doğulduqda isə ən geci doğum vaxtından ötən 3 gün müddətində verilməlidir.[137]

Maddə 168. **Doğum haqqında qeydiyyat**

168.1. Doğum haqqında qeydiyyatda uşağın adı, atasının adı və soyadı, habelə onun valideynləri haqqında məlumat bu Məcəllənin 46 və 53-cü maddələrinə uyğun yazılır.[138]

168.2. Atalıq müəyyən edilmədiyi halda atanın milliyyəti ananın göstərişi ilə yazılır.

Maddə 169. **Uşaq doğulanadək ölmüş atanın qeydiyyatı**

Uşaq, onun anası ilə qeydə alınmış nikahda olmuş şəxsin ölümündən sonra doğulduqda, ölmüş şəxs doğum haqqında qeydiyyata və şəhadətnaməyə bu şərtlə uşağın atası kimi yazıla bilər ki, göstərilən şəxsin ölümü günündən uşağın doğulduğu günədək 10 aydan çox vaxt keçməsin.

Maddə 170. **Nikah pozulduqdan və ya etibarsız hesab edildikdən sonra anadan olan uşağın doğulmasının qeydə alınması**

Nikah dövründə ana bətninə düşmüş, lakin nikah pozulduqdan və ya etibarsız hesab edildikdən sonra anadan olmuş uşağın doğulmasının qeydiyyatı, nikahın pozulduğu və ya etibarsız hesab edildiyi gündən uşağın doğulduğu günədək 10 aydan çox keçməmişdirsə, valideynləri nikahda olan uşağın doğulmasının qeydiyyatı qaydasında aparılır.

*23-cü fəsil*

**Nikahın qeydə alınması**

Maddə 171. **Nikaha daxil olmaq arzusu haqqında ərizə**

171.1. Nikaha daxil olmağı arzu edənlər nikaha daxil olanlardan və ya onların valideynlərindən birinin seçdiyi hər hansı bir müvafiq icra hakimiyyəti orqanına bu barədə şəxsən yazılı ərizə verirlər. Ərizədə nikaha daxil olmaq üçün bu Məcəllənin 12-ci maddəsində nəzərdə tutulmuş maneələrin olmadığı təsdiq edilməli, habelə hərənin neçənci nikaha daxil

olduğu və neçə uşağı olduğu göstərilməlidir.

171.2. Nikaha daxil olmaq barədə ərizəyə, bu Məcəllənin 13.3-cü maddəsinə uyğun olaraq, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə olunur.[139]

Maddə 172. **Nikaha daxil olanların öz hüquq və vəzifələri ilə tanış edilməsi, nikahın qeyd gününün təyin olunması**

172.1. Ərizəni qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı nikaha daxil olanları nikahın qeyd olunması şərtləri və qaydası ilə tanış etməyə, bu şəxslərin bir-birinin səhhəti və ailə vəziyyəti haqqında xəbərdar olduqlarını yəqin etməyə, habelə gələcək ər-arvad və valideyn kimi onlara hüquqlarını və vəzifələrini izah etməyə, eləcə də nikaha daxil olmaqla maneələrin gizlədilməsi üçün məsuliyyət daşıdıqları haqqında onları xəbərdar etməyə borcludur.

172.2. Nikahın qeydiyyatının günü və saatı nikaha daxil olan şəxslərlə razılaşdırılaraq bu Məcəllənin 9-cu maddəsi ilə nəzərdə tutulmuş müddətlərə əməl etməklə ərizə verilən gündən 1 ay tez olmayaraq təyin edilir. Nikahın qeydiyyatı günü təyin edilərkən nikaha daxil olanlar nikahı təntənəli şəraitdə bağlamaq arzusunda olub-olmadıqlarını bildirirlər.

Maddə 173. **Nikahın qeyd edilməsinə maneələr olduğu haqqında ərizənin yoxlanması**

Nikahı qeyd etmək üçün təyin olunmuş günədək nikahın qeyd edilməsinə qanuni maneələr olduğu haqqında müvafiq icra hakimiyyəti orqanına ərizə daxil olarsa, qeydiyyat təxirə salınır, ərizə verənə isə ərizəni təsdiq edən sənədli sübutlar təqdim olunması üçün 1 aydan çox olmayaraq vaxt verilir. Müəyyən edilmiş müddətdə əsaslı sübutlar təqdim olunmazsa, nikah haqqında qeydiyyat aparıla bilər.

Maddə 174. **Nikahın qeydə alınması**

Nikahın qeydə alınması müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olan şəxslərin iştirakı ilə aparılır. [140]

Maddə 175. **Nikah haqqında şəhadətnamənin verilməsi**

Nikahın bağlanması haqqında qeyd aparıldıqda nikah haqqında şəhadətnamə verilir.

*24-cü fəsil*

**Övladlığa götürmənİn qeydə alınması**

Maddə 176. **Övladlığa götürmənin qeydə alınmasının yeri və qaydası**

176.1. Övladlığa götürmə barədə qeydiyyat övladlığa götürmə haqqında məhkəmə qətnaməsinə əsasən bu barədə qətnamənin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanında aparılır.[141]

~~176.2. Övladlığa götürənlər övladlığa götürmə haqqında məhkəmənin qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən ən geci 1 ay ərzində övladlığa götürməni müvafiq icra hakimiyyəti orqanında qeyd etdirməyə borcludurlar.~~[142]

Maddə 177. **Övladlığa götürülənin *doğumu* haqqında akt *qeydlərində* dəyişikliklər edilməsi**[143]

Övladlığa götürülmüş uşağa övladlığa götürənin adı ilə ata adı və soyadı verilərsə, habelə övladlığa götürülənin adı dəyişdirilərsə və ya övladlığa götürənlər övladlığa götürülənin valideynləri kimi yazılarsa, eləcə də övladlığa götürülənin doğulduğu yer dəyişdirilərsə, övladlığa götürülmüş uşağın *doğumu* haqqında akt *qeydində* müvafiq icra hakimiyyəti orqanı tərəfindən dəyişikliklər edilir və bu dəyişikliklər nəzərə alınmaqla doğum haqqında yeni şəhadətnamə verilir.[144]

*Maddə 178.* ***Övladlığa götürmə haqqında akt qeydinin ləğvi***[145]

178.1. Məhkəmə övladlığa götürməni etibarsız hesab etdikdə müvafiq icra hakimiyyəti orqanı övladlığa götürmə haqqında *akt qeydini* ləğv edir, övladlığa götürmə məhkəmə tərəfindən ləğv edildikdə isə övladlığa götürmə haqqında *akt qeydində* övladlığa götürmənin ləğvi haqqında qeydlər aparır. Belə hallarda övladlığa götürülənin *doğumu haqqında akt qeydində* övladlığa götürmədən əvvəl olmuş bütün ilkin məlumat bərpa edilir. [146]

178.2. Övladlığa götürmə uşağın valideynlərinin xahişi ilə ləğv edilmişsə, uşağın valideynləri, övladlığa götürmə müvafiq icra hakimiyyəti orqanının tələbi ilə ləğv edilmişsə, bu orqan övladlığa götürmə *haqqında akt* qeydini ləğv etmə haqqında məlumat verə bilər. [147]

*25-ci fəsil*

**Nİkahın pozulmasının qeydə alınması**

***Maddə 179. Nikahın pozulmasının dövlət qeydiyyatına alındığı yer***

*Ərizə əsasında nikahın pozulması ər-arvadın və ya onlardan birinin seçdiyi, məhkəmə qətnaməsi əsasında nikahın pozulması isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.*[148]

Maddə 180. **Məhkəmənin qətnaməsi əsasında nikahın pozulmasının qeydə alınması**

180.1. Məhkəmənin qətnaməsi əsasında nikahın pozulmasını həm ər ilə arvadın hər ikisinin, həm də onlardan birinin ərizəsi üzrə müvafiq icra hakimiyyəti orqanı qeydə alır.

180.2. Ər-arvaddan yalnız birinin ərizəsi əsasında nikahın pozulması qeydə alındıqda nikah xətm olunmuş hesab edilir və nikahın pozulması haqqında şəhadətnamə almış şəxs yeni nikah bağlaya bilər.[149]

Maddə 181. **Ər-arvadın qarşılıqlı razılığı üzrə nikahın pozulmasının qeydə alınması**

181.1. Qarşılıqlı razılıq üzrə nikahın pozulması (bu Məcəllənin 17.1-ci maddəsi) haqqında ərizədə ər-arvad onların yetkinlik yaşına çatmayan uşaqlarının olub-olmadığını təsdiq etməyə borcludurlar.

181.2. Nikahın pozulması bu barədə ərizə verilən gündən 1 ay keçdikdən sonra qeydə alınır.

Maddə 182. **Ər-arvaddan birinin ərizəsi üzrə nikahın pozulmasının qeydə alınması**

182.1. Bu Məcəllənin 17.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar üzrə nikahı pozmaq haqqında ərizə vermiş ər (arvad) həmin ərizəyə arvadın (ərin) xəbərsiz itkin düşmüş və ya ruhi xəstəlik, yaxud *əqli gerilik* nəticəsində fəaliyyət qabiliyyəti olmayan hesab edilməsinə dair məhkəmə qətnaməsini, ~~yaxud da arvadın (ərin) azı 3 il müddətinə azadlıqdan məhrum edilməyə məhkum olunduğu barədə hökmdən çıxarışı~~ əlavə etməlidir.[KMQ1]

[KMQ1]182.2. Bu Məcəllənin 17.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar üzrə nikahı pozmaq haqqında ərizə təqdim edildikdə, müvafiq icra hakimiyyəti orqanı nikahın pozulmasını ərizə verilən gün ərizəçinin iştirakı ilə qeydə alır, 3 gün müddətində bu barədə ~~azadlıqdan məhrumetmə növündə cəza çəkən ərə (arvada) və ya~~ fəaliyyət qabiliyyəti olmayan ərin (arvadın) qəyyumuna, yaxud xəbərsiz itkin düşmüş hesab edilən ərin (arvadın) əmlakını idarə edənə məlumat göndərir. Müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan hesab edilmiş şəxsə qəyyum təyin edilməmişdirsə, məlumat fəaliyyət qabiliyyəti olmayan hesab edilmiş şəxsin yaşadığı yerin qəyyumluq və himayə orqanına göndərilir. Məlumatda uşaqlar haqqında, ər-arvadın ümumi birgə mülkiyyəti olan əmlakın bölgüsü haqqında və ya fəaliyyət qabiliyyəti olmayan və yardıma ehtiyacı olan ərə (arvada) aliment verilməsinə dair mübahisə olduğu halda onun həlli üçün məhkəməyə müraciət etmək hüququ izah edilir.[150]

Maddə 183. **Nikahın pozulması qeydə alınarkən ərə (arvada) nikahdan əvvəlki soyadının verilməsi**

Ər (arvad) ona nikahdan əvvəlki soyadının verilməsini arzu edirsə, nikahın pozulmasının qeydə alınması zamanı bunu müvafiq icra hakimiyyəti orqanına bildirməlidir. Ərə (arvada) nikahdan əvvəlki soyadının verilməsi barədə həmin orqan müvafiq qeyd aparır.

Maddə 184. **Nikahın pozulması haqqında şəhadətnamə verilməsi**

Nikahın pozulması haqqında qeyd aparıldıqda nikahın pozulması haqqında şəhadətnamələr verilir.

Maddə 185. **Nikahın pozulmasının qeydə alınması haqqında ərə (arvada) və nikahın qeydə alındığı yerdə müvafiq icra hakimiyyəti orqanına məlumat verilməsi**

Müvafiq icra hakimiyyəti orqanı ərin (arvadın) yaşayış yeri məlum olduqda ona, habelə nikahın qeydə alındığı yerdə müvafiq icra hakimiyyəti orqanına nikahın pozulmasının qeydə alınması haqqında məlumat verməyə borcludur.

*26-cı fəsil*

**Atalığın müəyyən edilməsinin qeydə alınması**

*Maddə 186.* ***Atalığın müəyyən edilməsinin dövlət qeydiyyatına alındığı yer***[151]

*Ərizə əsasında atalığın müəyyən edilməsi valideynlərin seçdiyi, atalıq məhkəmə tərəfindən müəyyən edildikdə isə məhkəmə qətnaməsinin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.*

Maddə 187. **Atalığın müəyyən edilməsinin qeydə alınması qaydası**

187.1. Atalığın müəyyən edilməsi valideynlərin birgə ərizəsi və ya məhkəmənin qətnaməsi əsasında, ana öldükdə, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, valideynlik hüquqlarından məhrum olunduqda və ya onun yaşayış yerini müəyyən etmək mümkün olmadıqda isə atanın ərizəsi üzrə qeydə alınır.

*187.1-1. Atalığın müəyyən edilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək 'Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*[152]

187.2. Yetkinlik yaşına çatanlar barəsində atalığın müəyyən edilməsinin qeydə alınmasına yalnız onların razılığı ilə yol verilir.

Maddə 188. **Uşağın doğulması haqqında qeydə ata barəsində məlumatın yazılması**

Atalığın müəyyən edilməsi haqqında qeyd əsasında uşağın doğulması haqqında qeydə ata barəsində məlumat yazılır və doğum haqqında yeni şəhadətnamə verilir.

*27-ci fəsil*

**Adın, ata adının və soyadın dəyişdirilməsinin qeydə alınması**

Maddə 189. **Vətəndaşların adı və soyadı, ata adını dəyişdirmək hüququ**

Azərbaycan Respublikası vətəndaşlarının öz adını və soyadını, atasının adını dəyişdirməsinə 18 yaşına çatdıqdan sonra yol verilir.

***Maddə 190. Adın, ata adının və soyadın dəyişdirilməsinin dövlət qeydiyyatına alınması qaydası***

*190.1. Ərizə əsasında adın, ata adının və soyadın dəyişdirilməsi vətəndaşın seçdiyi, məhkəmə qətnaməsi əsasında dəyişdirilməsi isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.*
*190.2. Adın, ata adının və soyadın dəyişdirilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*[153]

Maddə 191. **Adını, ata adını və soyadını dəyişdirmiş şəxslərin uşaqlarının doğulması haqqında qeyddə dəyişikliklər aparılması**

191.1. Atanın öz adını dəyişdirməsi qeydə alınarkən onun yetkinlik yaşına çatmayan uşaqlarının ata adı dəyişdirilir. Yetkinlik yaşına çatanların ata adı yalnız o hallarda dəyişdirilir ki, onların özləri bu barədə müraciət etmiş olsunlar.
191.2. Hər iki valideynin soyadı dəyişdirildikdə, yetkinlik yaşına çatmayanların soyadı dəyişir. Soyadı valideynlərdən biri dəyişdirərsə, onun yetkinlik yaşına çatmayan uşaqlarının soyadının dəyişməsi məsələsi valideynlər arasında razılığa görə, razılıq olmadıqda isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həll edilir.

Maddə 192. **Adın, ata adının və soyadın dəyişdirilməsi ilə əlaqədar olaraq vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması haqqında yeni şəhadətnamələrin verilməsi**

Adın, ata adının və soyadın dəyişdirilməsinin qeydə alınması ilə əlaqədar vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatında dəyişikliklər edilmişsə, əvvəllər verilmiş şəhadətnamələr ləğv edilir və onların əvəzində qeydiyyatda dəyişikliklər nəzərə alınmaqla yeni şəhadətnamələr verilir.

*28-ci fəsil*

**Ölümün qeydə alınması**

*Maddə 193.* ***Ölümün dövlət qeydiyyatına alındığı yer***[154]

*Ölüm bu barədə məlumat verən şəxsin seçdiyi, ölüm faktı məhkəmə tərəfindən müəyyən edildikdə və ya şəxs ölmüş elan edildikdə isə məhkəmə qətnaməsinin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.*

*Maddə 194.* ***Ölüm haqqında məlumat vermə***[155]

*194.1. Ölüm haqqında məlumat tibb müəssisəsi tərəfindən dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən isə həmin gün informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*
*194.2. Ölüm faktının müəyyən olunması və ya şəxsin ölmüş elan edilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.*
*194.3. Ölüm haqqında məlumatın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə tibb müəssisəsi, həmin məlumatın informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülməməsinə və ya düzgün olmayan məlumatın ötürülməsinə görə müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.*

*Maddə 195.* ***Ölümün dövlət qeydiyyatına alınması qaydası***[156]

*195.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Azərbaycan Respublikasının ərazisində ölmüş şəxsin ölümünü informasiya sisteminə ötürülmüş məlumat əsasında həmin məlumatın ötürüldüyü iş günü ərzində dövlət qeydiyyatına alır.*

*195.2. Azərbaycan Respublikası vətəndaşının, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin və ya əcnəbinin xarici ölkədə öldüyü və ölüm həmin ölkənin səlahiyyətli orqanlarında və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) qeydə alınmadığı hallarda ölümün qeydiyyatı bu ölkədə verilmiş ölüm faktını təsdiq edən tibbi sənəd əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.*

*Maddə 196. **Dəfnlərin reyestri*** [157]

*Dəfnlərin vahid dövlət reyestri müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.*

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


28 dekabr 1999-cu il tarixli **781-IQ** nömrəli "Azərbaycan Respublikası Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2000-ci il, 3, maddə 126**) ilə təsdiq edilmişdir.

1. 22 oktyabr 2002-ci il tarixli 374-IIQD nömrəli "Azərbaycan Respublikasının Ailə Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2002-ci il, 12, Maddə 702** )
2. 30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2004-cü il, 7, maddə 505** )
3. 23 dekabr 2005-ci il tarixli **34-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 66**)
4. 10 oktyabr 2006-cı il tarixli 155-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 923**)
5. 20 oktyabr 2006-cı il tarixli 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1005**)
6. 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**)
7. 29 dekabr 2006-cı il tarixli 220-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 1, maddə 4**)
8. 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 745**)
9. 9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, 11, maddə 1053**)
10. 7 dekabr 2007-ci il tarixli 509-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1218**)
11. 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 602**)
12. 4 dekabr 2009-cu il tarixli **924-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 fevral 2010-cu il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 70)**
13. 1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 mart 2010-cu il, 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 03, maddə 171)**
14. 20 aprel 2010-cu il tarixli **992-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 3 iyun 2010-cu il, 118, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 380)**
15. 31 may 2010-cu il tarixli **1016-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyul 2010-cu il, 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 578)**
16. 17 may 2011-ci il tarixli **114-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 iyul 2011-ci il, 143, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 07, maddə 585)**
17. 24 iyun 2011-ci il tarixli **181-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 30 iyul 2011-ci il, 159, "Azərbaycan" qəzeti, 02 avqust 2011-ci il, 167, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 07, maddə 620)**
18. 15 noyabr 2011-ci il tarixli **255-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 24 dekabr 2011-ci il, 279, "Azərbaycan" qəzeti, 29 dekabr 2011-ci il, 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 12, maddə 1110)**
19. 17 oktyabr 2014-cü il tarixli **1080-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 dekabr 2014-cü il, 280, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2014-cü il, 12, madd ə 1515)**
20. 1 fevral 2019-cu il tarixli **1470-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 24 fevral 2019-cu il, 45 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 185)**
21. 9 aprel 2019-cu il tarixli **1558-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 may 2019-cu il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 800)**
22. 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288 , Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906)**

23. 19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 15 iyul 2020-ci il, 136 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 832)**

24. 20 noyabr 2020-ci il tarixli **199-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 6 yanvar 2021-ci il, 1 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1424)**

25. 9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 11 aprel 2021-ci il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308)**

26. 23 aprel 2021-ci il tarixli **301-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 13 iyun 2021-ci il, 122 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 541)**

27. 22 iyun 2021-ci il tarixli **348-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 21 avqust 2021-ci il, 175 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 894)** *(2022-ci il iyulun 1-dən qüvvəyə minir)*

28. 9 iyul 2021-ci il tarixli **360-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 25 iyul 2021-ci il, 152 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 711)**

29. 27 dekabr 2021-ci il tarixli **464-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 1 fevral 2022-ci il, 22 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 11)**

30. 5 may 2022-ci il tarixli **525-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 14 iyun 2022-ci il, 124 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 580)**

31. 8 iyul 2022-ci il tarixli **581-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 avqust 2022-ci il, “Azərbaycan” qəzeti 20 avqust 2022-ci il, 177 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 828)**

32. 2 dekabr 2022-ci il tarixli **666-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 24 yanvar 2023-cü il, “Azərbaycan” qəzeti 25 yanvar 2023-cü il, 16 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 1, maddə 19)**

33. 20 dekabr 2022-ci il tarixli **739-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 9 fevral 2023-cü il, “Azərbaycan” qəzeti, 10 fevral 2023-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 2, maddə 192)**

34. 27 dekabr 2022-ci il tarixli **776-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 fevral 2023-cü il, “Azərbaycan” qəzeti, 2 fevral 2023-cü il, 23 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 2, maddə 207)**

35. 24 fevral 2023-cü il tarixli **823-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 mart 2023-cü il, “Azərbaycan” qəzeti, 1 aprel 2023-cü il, 66 )**

36. 2 may 2023-cü il tarixli **864-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 may 2023-cü il, “Azərbaycan” qəzeti, 1 iyun 2023-cü il, 114 )**

## Konstitusiya Məhkəməsinin Qərarları

KMQ1 Azərbaycan Respublikası Ailə Məcəlləsinin 17.2.3-cü maddəsinin və 182-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair (**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 9 iyul 2013-cü il tarixli Qərarı – “Respublika” qəzeti, 20 iyul 2013-cü il, 156)**

KMQ2 1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 8.2-ci maddəsinə müvafiq olaraq, həmin Məcəllənin 36.9-cu maddəsində müəyyən edilmiş 3 illik iddia müddətinin axımı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 377.1-ci maddəsinə əsasən, ər-arvadın hər birinin ümumi əmlaka olan mülkiyyət hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən hesablanır.
2. Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilən hüquqi mövqedən çıxış edərək müvafiq icra hakimiyyəti orqanına və məhkəmələrə tövsiyə olunsun ki, nikaha xitam verilərkən tərəflərə onların nikah dövründə əldə etdikləri ümumi əmlaka dair paylarının bölünməsi məsələsinin Azərbaycan Respublikası Ailə Məcəlləsinin 36.9-cu maddəsində göstərilən müddət çərçivəsində həll edilməsinin məqsədəmüvafiqliyi izah edilsin. (**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 29 iyul 2019-cu il tarixli Qərarı – “Respublika” qəzeti, 14 sentyabr 2019-cu il, 201)**

KMQ3 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 225-ci, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 32 və 41.2-ci maddələrinin tələblərinə uyğun olaraq, nikah dövründə ərin və ya arvadın ailə ehtiyaclarının təmin edilməsi məqsədi ilə üzərinə götürdüyü öhdəliklər ər-arvadın ümumi əmlakına daxil olmaqla hər ikisi üçün vəzifələr yaradır.
2. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 36-cı maddəsində nəzərdə tutulmuş ər-arvadın ümumi əmlakının bölgüsü müddəası onların mülkiyyət paylarının, iqtisadi dəyərə malik olan tələb hüquqlarının və yerinə yetirilməli olan öhdəliklərinin bölünməsini ehtiva edir.
Şəxsi xarakterli öhdəliklərin icrası üçün ərin (arvadın) şəxsi əmlakı kifayət etmədikdə kreditor ödəməni ər-arvadın ümumi əmlakında müvafiq tərəfin payına yönəltmək üçün ümumi əmlakın bölünməsi tələbi barədə ərizə verə bilər.
3. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 37.3-cü maddəsinə müvafiq olaraq, ər-arvadın bir-birinə qarşı əmlak bölgüsü haqqında iddiasına baxılarkən ümumi öhdəliklər üzrə borclar ər-arvadın hər birinin mülkiyyət payına mütənasib olaraq bölünür. Lakin bu bölgü kreditor qarşısında ər-arvadın birgə borclu olması halını aradan qaldırmır.
4. Ər-arvad arasında yarana biləcək əmlak mübahisələrinin qarşısının alınması üçün nikaha ərizə verən şəxslərə nikah müqaviləsinin bağlanılmasının təklif edilməsi müvafiq icra hakimiyyəti orqanına tövsiyə olunsun. (**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 23 iyul 2021-ci il tarixli Qərarı – “Respublika” qəzeti, 30 iyul 2021-ci il, 156)**

## MƏCƏLLƏYƏ EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 28 dekabr 1999-cu il tarixli **779-IQ** nömrəli “Azərbaycan Respublikası Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2000-ci il, 3, maddə 126**) ilə təsdiq edilmişdir.

[2] 9 iyul 2021-ci il tarixli **360-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 25 iyul 2021-ci il, 152 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 711**) ilə yeni məzmunda 7-1-ci maddə əlavə edilmişdir.

[3] 22 oktyabr 2002-ci il tarixli 374-IIQD nömrəli "Azərbaycan Respublikasının Ailə Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2002-ci il, 12, madd ə 702**) ilə 9.1-ci maddənin mətnində **"orqanında"** sözü **"orqanı tərəfindən"** sözləri ilə əvəz edilmişdir.

17 oktyabr 2014-cü il tarixli **1080-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 dekabr 2014-cü il, 280, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2014-cü il, 12, madd ə 1515**) ilə 9.1-ci maddədə "**şəxslərin**" sözündən sonra "**, bu Məcəllənin 13.3-cü maddəsinə uyğun olaraq, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə**," sözləri əlavə edilmişdir.

2 may 2023-cü il tarixli **864-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 may 2023-cü il, "Azərbaycan" qəzeti, 1 iyun 2023-cü il, 114**) ilə 9.1-ci maddədə "**13.3-cü maddəsinə uyğun olaraq, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə**" sözləri "**11-ci maddəsinin tələbləri nəzərə alınmaqla** " sözləri ilə əvəz edilmişdir.

[4] 22 oktyabr 2002-ci il tarixli 374-IIQD nömrəli "Azərbaycan Respublikasının Ailə Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2002-ci il, 12, maddə 702**) ilə 9.4-cü maddənin mətnində **"orqanında"** sözü **"orqanı tərəfindən"** sözləri ilə əvəz edilmişdir.

[5] 9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2007-ci il, 11, maddə 1053**) ilə 9.5-ci maddədə "**(onlardan biri)** " sözlərindən sonra "**inzibati qaydada və (və ya)** " sözləri əlavə edilmişdir.

[6] 15 noyabr 2011-ci il tarixli **255-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 24 dekabr 2011-ci il, 279, "Azərbaycan" qəzeti, 29 dekabr 2011-ci il, 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 12, maddə 1110**) ilə 10.1-ci maddəsində "**kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş** " sözləri "**18 yaş**" sözləri ilə əvəz edilmişdir.

[7] 17 oktyabr 2014-cü il tarixli **1080-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 dekabr 2014-cü il, 280, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2014-cü il, 12, madd ə 1515**) ilə 11.1-ci maddədə "**razılığı**" sözündən sonra "**, bu Məcəllənin 13.3-cü maddəsinə uyğun olaraq, tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın təqdim edilməsi**" sözləri əlavə edilmişdir.

2 may 2023-cü il tarixli **864-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 may 2023-cü il, "Azərbaycan" qəzeti, 1 iyun 2023-cü il, 114**) ilə 11.1-ci maddədə "**13.3-cü**" sözləri "**13-cü**" sözləri ilə əvəz edilmişdir.

[8] 17 oktyabr 2014-cü il tarixli **1080-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 dekabr 2014-cü il, 280, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2014-cü il, 12, madd ə 1515**) ilə Məcəlləyə yeni məzmunda 12.0.3-1-ci maddə əlavə edilmişdir.

2 may 2023-cü il tarixli **864-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 may 2023-cü il, "Azərbaycan" qəzeti, 1 iyun 2023-cü il, 114**) ilə 12.0.3-1-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~12.0.3-1. tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı təqdim etməkdən imtina edən şəxslər;~~

[9] 8 iyul 2022-ci il tarixli **581-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 avqust 2022-ci il, "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 828**) ilə 12.0.4-cü maddədə "**kəmağıllıq**" sözü "**əqli gerilik**" sözləri ilə əvəz edilmişdir.

[10] 23 dekabr 2005-ci il tarixli **34-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 2, maddə 66**) ilə 13.1-ci maddədə "**tibbi-genetik**" sözlərindən sonra "**, tibbi-psixoloji**" sözləri əlavə edilmişdir.

17 oktyabr 2014-cü il tarixli **1080-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 dekabr 2014-cü il, 280, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2014-cü il, 12, madd ə 1515**) ilə 13-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Maddə 13. **Nikaha daxil olan şəxslərin tibbi müayinəsi**~~

~~13.1. Nikaha daxil olan şəxslərin tibbi müayinəsi, habelə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların razılığı ilə yaşayış yerindəki dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir.~~

~~13.2. Nikaha daxil olan şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir.~~

13.3. Nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AIDS) olmasını o birindən gizlətdikdə, digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər.

[11] 20 noyabr 2020-ci il tarixli **199-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 6 yanvar 2021-ci il, 1 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1424**) ilə 13.2-ci maddəsində "**pulsuz**" sözü "**müvafiq olaraq dövlət və ya yerli büdcənin vəsaitləri hesabına ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfində nəzərdə tutulduğu halda isə icbari tibbi sığorta vəsaitləri hesabına)**" sözləri ilə əvəz edilmişdir.

[12] 2 may 2023-cü il tarixli **864-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 may 2023-cü il, "Azərbaycan" qəzeti, 1 iyun 2023-cü il, 114**) ilə 13.3-cü maddənin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və həmin maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[13] 2 may 2023-cü il tarixli **864-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 may 2023-cü il, "Azərbaycan" qəzeti, 1 iyun 2023-cü il, 114**) ilə 13.4-cü maddənin birinci cümləsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:.

~~Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış onların müvafiq icra hakimiyyəti orqanına nikaha daxil olmaq barədə verdikləri ərizəyə əlavə olunur.~~

KMQ1 Azərbaycan Respublikası Ailə Məcəlləsinin 17.2.3-cü maddəsinin və 182-ci maddəsinin bəzi müddəalarının Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair (**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 7 iyul 2013-cü il tarixli qərarı**) – (**"Respublika" qəzeti, 20 iyul 2013-cü il, 156**) ilə Nikahın pozulmasının qeydə alınması qaydalarını müəyyən edən Azərbaycan Respublikası Ailə Məcəlləsinin 182.1-ci maddəsinin "**yaxud da arvadın (ərin) azı 3 il müddətinə azadlıqdan məhrum edilməyə məhkum olunduğu barədə hökmdən çıxarışı**" müddəası qüvvədən düşmüş hesab edilmişdir.

[14] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 17.3-cü maddə çıxarılmışdır.

[15] 2 may 2023-cü il tarixli **864-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 may 2023-cü il, "Azərbaycan" qəzeti, 1 iyun 2023-cü il, 114**) ilə 23.3-cü maddədə "**qüvvəyə mindiyi gündən 3 gün müddətində məhkəmə bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur**" sözləri "**qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür**" sözləri ilə əvəz edilmişdir.

[16] 17 oktyabr 2014-cü il tarixli **1080-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 dekabr 2014-cü il, 280, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2014-cü il, 12, maddə 1515**) ilə 25-ci və 26.1.8-ci maddələrdə "**13.3-cü**" sözləri "**13.7-ci**" sözləri ilə əvəz edilmişdir.

[17] 2 may 2023-cü il tarixli **864-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 may 2023-cü il, "Azərbaycan" qəzeti, 1 iyun 2023-cü il, 114**) ilə 25.3-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~25.3. Məhkəmə nikahın etibarsız sayılması barədə qanuni qüvvəyə minmiş qətnamədən çıxarışı 3 gün müddətində nikahın bağlandığı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur.~~

[18] 10 oktyabr 2006-cı il tarixli 155-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 923**) ilə 31.3-cü maddəsində "Kəndli (fermer)" sözləri "Ailə kəndli" sözləri ilə əvəz edilmişdir.

[19] 8 iyul 2022-ci il tarixli **581-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 avqust 2022-ci il, "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 828**) ilə 32.2.1-ci maddədə "**şikəstlik**" sözü "**xəsarət**" sözü ilə əvəz edilmişdir.

[20] 24 fevral 2023-cü il tarixli **823-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 mart 2023-cü il, "Azərbaycan" qəzeti, 1 aprel 2023-cü il, 66**) ilə 32.2.2-ci maddədə "**idarələrinə**" sözü "**təşkilatlarına**" sözü ilə əvəz edilmişdir.

[21] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 745**) ilə 33.2-ci maddədə "ümumi əmlakı" sözləri "rəsmi reyestrdə qeydə alınmalı olmayan ümumi daşınar əmlakı" sözləri ilə əvəz edilmişdir.

[22] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 745**) ilə 33.3-cü maddədə "ərin (arvadın) tələbi ilə məhkəmə tərəfindən etibarsız hesab oluna bilər" sözləri "ər (arvad) tərəfindən mübahisələndirilə bilər" sözləri ilə əvəz edilmişdir.

[23] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 745**) ilə 33.4-cü maddədə "o, əqdin həyata keçirildiyindən xəbər tutduğu və ya xəbər tutmaq imkanı olduğu gündən 1 il ərzində həmin əqdin etibarsız sayılmasını tələb etmək hüququna malikdir" sözləri "bu əqd Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən olunmuş müddətdə mübahisələndirilə bilər" sözləri ilə əvəz edilmişdir.

[24] 9 iyul 2021-ci il tarixli **360-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 25 iyul 2021-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 711**) ilə yeni məzmunda 38.4-1-ci maddə əlavə edilmişdir.

[25] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 745**) ilə 40.6-cı maddənin birinci cümləsində "onun tələbi ilə nikah müqaviləsi məhkəmə tərəfindən tamamilə və ya qismən etibarsız sayıla bilər" sözləri "nikah müqaviləsi onun tərəfindən mübahisələndirilə bilər" sözləri ilə əvəz edilmişdir.

[26] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 44.1-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~44.1. Uşağın anadan mənşəyi (analıq) tibb müəssisəsində ananın uşağı doğmasını təsdiq edən sənəd əsasında, uşaq tibb müəssisəsindən kənarda anadan olduqda isə tibb sənədləri, şahid ifadələri və ya digər sübutlar əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.~~

[27] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 46.1-ci maddədən "**onlardan birinin ərizəsi əsasında**" sözləri çıxarılmışdır.

[28] 4 dekabr 2009-cu il tarixli **924-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 fevral 2010-cu il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 70**) ilə 51.6-cı maddənin birinci cümləsində "**təhlükədə olması, onun**" sözlərindən sonra "**həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb olunması,** " sözləri əlavə edilmişdir.

[29] 4 dekabr 2009-cu il tarixli **924-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 fevral 2010-cu il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 2, maddə 70**) ilə Məcəlləyə **51.7-ci maddə** əlavə edilmişdir.

23 aprel 2021-ci il tarixli **301-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 iyun 2021-ci il, 122 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 541**) ilə 51.7-ci maddədə "**orqanları**" sözü "**orqanının müəyyən etdiyi orqan (qurum)**" sözləri ilə və "**edirlər**" sözü "**edir**" sözü ilə əvəz edilmişdir.

[30] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 52-ci maddənin üçüncü cümləsində "**bilər**" sözü "**, habelə qərar qəbul edərkən 7 yaşına çatmış uşağın fikrini öyrənə və nəzərə ala bilər**" sözləri ilə əvəz edilmişdir.

[31] 31 may 2010-cu il tarixli **1016-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 18 iyul 2010-cu il, 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 578**) ilə 53.3-cü maddəsinin birinci cümləsində "Uşağın soyadı" sözlərindən sonra ", bir qayda olaraq," sözləri əlavə olunmuşdur və bu maddəyə üçüncü cümlə əlavə edilmişdir.

[32] 5 may 2022-ci il tarixli **525-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2022-ci il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 580**) ilə 61.5-ci maddədə "**tərbiyə və müalicə, sosial müdafiə və digər müvafiq müəssisələrdən**" sözləri "**sosial xidmət müəssisələrindən**" sözləri ilə əvəz edilmişdir.

[33] 5 may 2022-ci il tarixli **525-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 14 iyun 2022-ci il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 6, maddə 580**) ilə 64.0.3-cü maddədə "**müalicə, tərbiyə, əhalinin sosial müdafiəsi müəssisəsindən və digər analoji müəssisələrdən**" sözləri "**sosial xidmət müəssisələrindən**" sözləri ilə əvəz edilmişdir.

[34] 24 iyun 2011-ci il tarixli **181-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 30 iyul 2011-ci il, 159, "Azərbaycan" qəzeti, 02 avqust 2011-ci il, 167, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 07, maddə 620**) ilə **64.0.5-ci maddəsi yeni redaksiyada** verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~64.0.5. uşaqlarla amansız davrandıqda, onları fiziki və psixi təzyiq altında saxladıqda;~~

[35] 27 dekabr 2022-ci il tarixli **776-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 fevral 2023-cü il, "Azərbaycan" qəzeti, 2 fevral 2023-cü il, 23, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 2, maddə 207**) ilə 64.0.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 64.0.8-ci maddə əlavə edilmişdir.

[36] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 65.2-ci maddədə "**ərizəsinə,**" sözündən sonra "**müvafiq icra hakimiyyəti orqanının,**" sözləri əlavə edilmişdir.

[37] 27 dekabr 2021-ci il tarixli **464-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 fevral 2022-ci il, 22, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 11**) ilə 65.5-ci maddə yeni redaksiyada verilmişdir

əvvəlki redaksiyada deyilirdi:

~~65.5. Məhkəmə, valideynlik hüquqlarından məhrumetmə haqqında qətnamə qanuni qüvvəyə mindikdən sonra 3 gündən gec olmayaraq bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməlidir.~~

2 may 2023-cü il tarixli **864-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 may 2023-cü il, "Azərbaycan" qəzeti, 1 iyun 2023-cü il, 114**) ilə 65.5, 131.4, 161.4, 162.3, 163.3, 166.2-1, 187.1-1 və 194.2-ci maddələrdə "**3 gün müddətində**" sözləri "**dərhal**" sözü ilə əvəz edilmişdir.

-

[38] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 74.4-cü və 79.2-ci maddələrdə "**tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdə**" sözləri "**sosial xidmət müəssisələrində**" sözləri ilə əvəz edilmişdir.

[39] 8 iyul 2022-ci il tarixli **581-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 avqust 2022-ci il, "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 828**) ilə 81.1-ci maddədə "**şikəst olan**" sözləri "**əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[40] 8 iyul 2022-ci il tarixli **581-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 19 avqust 2022-ci il, "Azərbaycan" qəzeti 20 avqust 2022-ci il, 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 828**) ilə 83.1-ci maddədə "**şikəst olduqda**" sözləri "**əlilliyi müəyyən edildikdə**" sözləri ilə əvəz edilmişdir.

[41] 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 602**) ilə 84.2.3-cü maddədə "**əlil**" sözü "**sağlamlıq imkanları məhdud**" sözləri ilə əvəz edilmişdir.

22 iyun 2021-ci il tarixli **348-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2021-ci il, 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 894**) ilə 84.2.3-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~84.2.3. sağlamlıq imkanları məhdud ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad – uşaq 18 yaşına çatana qədər;~~

[42] 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 602**) ilə 84.2.4-cü maddədə "**I qrup əlil**" sözlərindən əvvəl "**18 yaşından yuxarı**" sözləri əlavə edilmişdir.

19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 832**) ilə 84.2.4-cü maddədə "**I qrup əlil**" sözləri "**I dərəcə əlilliyi olan**" sözləri ilə əvəz edilmişdir.

22 iyun 2021-ci il tarixli **348-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2021-ci il, 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 894**) ilə 84.2.4-cü maddə ləğv edilmişdir.

[43] 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 7, maddə 602**) ilə 85.1.2-ci maddədə "**yetkinlik yaşına çatmamış əlil ümumi uşağa və ya uşaqlıqdan**" sözləri "**sağlamlıq imkanları məhdud ümumi uşağa və ya 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı**" sözləri ilə əvəz edilmişdir.

19 may 2020-ci il tarixli **114-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 15 iyul 2020-ci il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 832**) ilə 85.1.2-ci maddədə "**I qrup əlil**" sözləri "**I dərəcə əlilliyi**" sözləri ilə əvəz edilmişdir.

22 iyun 2021-ci il tarixli **348-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2021-ci il, 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 894**) ilə 85.1.2-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~85.1.2. sağlamlıq imkanları məhdud ümumi uşağa və ya 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18~~

~~yaşından yuxarı *I dərəcə əlilliyi* olan ümumi uşağa qulluq edən və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad);~~

[44] 7 dekabr 2007-ci il tarixli 509-IIIQD nömrəli Azərbaycan Respublikası Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1218**) ilə 87.0.1-ci maddəsində **"narkotik vasitələrin"** sözlərindən sonra **", psixotrop maddələrin"** sözləri əlavə edilmişdir.

[45] 17 aprel 2007-ci il tarixli 315-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 8, maddə 745**) ilə 96.2-ci maddədə "sazişin etibarsız sayılması üçün" sözləri "saziş" sözü ilə, "məhkəmə qarşısında iddia qaldıra bilər" sözləri "tərəfindən mübahisələndirilə bilər" sözləri ilə əvəz edilmişdir.

[46] 17 may 2011-ci il tarixli **114-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 5 iyul 2011-ci il, 143, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 07, maddə 585**) ilə 104.1-ci, 104.2-ci, 106.3-cü və 106.5-ci maddələrində ismin müvafiq hallarında "**məhkəmə icraçısı**" sözləri "**icra məmuru**" sözləri ilə əvəz edilmişdir.

[47] 1 fevral 2010-cu il tarixli **951-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 mart 2010-cu il, 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 03, maddə 171) ilə** 104.2-ci maddəsində "**işinə**" sözü "**işlərinə**" sözü ilə əvəz edilmişdir.

[48] 24 fevral 2023-cü il tarixli **823-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 31 mart 2023-cü il, "Azərbaycan" qəzeti, 1 aprel 2023-cü il, 66**) ilə 105-ci maddənin ikinci cümləsində "**idarələrindəki**" sözü "**təşkilatlarındakı**" sözü ilə əvəz edilmişdir.

[49] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 114.1-ci maddədə "**tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdən**" sözləri "**sosial xidmət müəssisələrindən**" sözləri ilə əvəz edilmişdir.

[50] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 114.2-ci maddədə "**uçotunu aparır**" sözləri "**ilkin uçotunu aparır, ümumi uçotun aparılması üçün müvafiq icra hakimiyyəti orqanına məlumat verir**" sözləri ilə əvəz edilmişdir.

3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 114.2-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~114.2. Müvafiq icra hakimiyyəti orqanı valideyn himayəsindən məhrum olan uşaqları aşkar edir, belə uşaqların ilkin uçotunu aparır, ümumi uçotun aparılması üçün müvafiq icra hakimiyyəti orqanına məlumat verir və valideyn himayəsindən məhrum olmağın konkret hallarını nəzərə almaqla həmin uşaqların yerləşdirilməsi formalarını seçir, eləcə də onların saxlanması, tərbiyəsi və təhsili şəraitinə nəzarəti həyata keçirir.~~

[51] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 115-ci maddənin adından "**və uçotu**" sözləri çıxarılmışdır.

[52] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 115.1-ci maddədə "**məlumatlara malik**" sözlərindən sonra "**doğum evləri**" sözləri əlavə edilmişdir.

[53] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 115.3-cü maddədə "**tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrin**" sözləri "**sosial xidmət müəssisələrinin**" sözləri ilə əvəz edilmişdir.

[54] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 115.4-cü maddədə "**göndərir**" sözü "**göndərir və bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir**" sözləri ilə əvəz edilmişdir.

3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 115.4-cü maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~115.4. Müvafiq icra hakimiyyəti orqanı bu Məcəllənin 115.1 və 115.2-ci maddələrində göstərilmiş məlumatları aldıqdan sonra 1 ay ərzində uşağın yerləşdirilməsini təmin edir, bu, mümkün olmadıqda isə həmin uşaq haqqında sənədləri bu Məcəllənin 115.5-ci maddəsinə uyğun olaraq mərkəzləşdirilmiş uçota alınmaq üçün göndərir və bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir.~~

23 aprel 2021-ci il tarixli **301-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 iyun 2021-ci il, 122, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 541**) ilə 115.4-cü maddədə "**orqanı**" sözü "**orqanının müəyyən etdiyi orqan (qurum)**" sözləri ilə və "**edirlər**" sözü "**edir**" sözü ilə əvəz edilmişdir.

[55] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 115.5-ci maddədə "**uçota alır**" sözləri "**uçota alır, ümumi uçota alınmaq üçün müvafiq icra hakimiyyəti orqanına təqdim edir**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 115.6-cı maddədən "**mərkəzləşdirilmiş**" sözü çıxarılmışdır.

3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 115.5-ci və 115.6-cı maddələr ləğv edilmişdir.

[56] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 115.7-ci maddədə "**115.5-ci**" sözləri "**115.4-cü**" sözləri ilə əvəz edilmişdir.

23 aprel 2021-ci il tarixli **301-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 13 iyun 2021-ci il, 122, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 541**) ilə 115.7-ci maddədə "**orqanlarının**" sözü "**orqanının müəyyən etdiyi orqanın (qurumun)**" sözləri ilə əvəz edilmişdir.

[57] [3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 116.1-ci maddədə "**və ya yetim uşaqlar üçün nəzərdə tutulmuş tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisələrinə və digər analoji müəssisələrə verilə bilərlər**" sözləri "**uşaqlar üçün sosial xidmət müəssisələrinə verilirlər**" sözləri ilə əvəz edilmişdir.

[58] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 117.1-ci maddədə "**naminə**" sözü "**naminə uşağın doğumu müvafiq icra hakimiyyəti orqanında qeydə alındıqdan sonra**" sözləri ilə əvəz edilmişdir.

[59] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 117.5-ci maddədə "**qohumları**" sözü "**qohumları (bacıları, qardaşları, nənələri, babaları, valideynlərinin bacıları, qardaşları, onların övladları)**" sözləri ilə əvəz edilmişdir.
[3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 117.5-ci maddədə "**uşaqların,**" sözündən sonra "**, habelə Azərbaycan Respublikasının vətəndaşı olmayan, lakin bu Məcəlləyə uyğun olaraq vahid uçota alınmış uşaqların,**" sözləri əlavə edilmişdir.

[60] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 117.6-ci maddədə "**mərkəzləşdirilmiş uçota götürüldükdən sonra 3 ay müddətində**" sözləri "**ümumi uçota götürüldüyü gündən 6 ay müddət bitdikdən sonra**" sözləri ilə əvəz edilmişdir.
[3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 117.6-cı maddəyə "**Uşaqlar**" sözündən sonra "**(bu Məcəllənin 117.6-1-ci maddəsində göstərilən hal istisna olmaqla)**" sözləri əlavə edilmişdir və həmin maddədə "**115.5-ci**" sözləri "**119.1-ci**" sözləri ilə, "**ümumi uçota götürüldüyü**" sözləri "**vahid uçota alındığı**" sözləri ilə əvəz edilmişdir.

[61] [3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 117.6-1-ci maddə əlavə edilmişdir.
[9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 117.6-1-ci maddəyə "**qohumu**" sözündən sonra "**(bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları)**" sözləri, "**övladlığa verilməsinə**" sözlərindən sonra "**onlar uçota alındıqları gündən**" sözləri əlavə edilmişdir.

[62] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 117.7-ci maddə əlavə edilmişdir.

[3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 117.7-ci maddə ləğv edilmişdir.

[63] [9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 118.3.2-ci maddədə "**şəxslərin**" sözü "**şəxsin (şəxslərin)**" sözləri ilə əvəz edilmişdir.

[64] [9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 118.3.3-cü maddəyə "**şəxsə**" sözündən sonra "**(şəxslərə)**" sözü əlavə edilmişdir.

[65] [9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 118.15-ci maddədə "**yaxın qohumlar**" sözləri "**qohumları**" sözü ilə, "**118.1.1-ci və 118.3.1-ci maddələrinin tələbləri həmin şəxslərə də şamil edilir**" sözləri "**118.3.2-118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil edilmir**" sözləri ilə əvəz edilmişdir.

[66] [27 dekabr 2021-ci il tarixli **464-VIQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 fevral 2022-ci il, 22 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 1, maddə 11**) ilə 118.20-ci maddə yeni redaksiyada verilmişdir

əvvəlki redaksiyada deyilirdi:
~~*118.20. Məhkəmə uşağın övladlığa götürülməsi barədə qətnamənin qüvvəyə mindiyi gündən 3 (üç) gün müddətində bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur.*~~
-
[67] [9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 118.24-cü maddədə "**yaxın qohumlar**" sözləri "**qohumları**" sözü ilə əvəz edilmişdir.

[68] [9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 119.4-cü maddədə "**Yaxın qohumlar**" sözləri "**Qohumları**" sözü ilə əvəz edilmişdir və həmin maddəyə "**tərəfindən**" sözündən əvvəl "**, eləcə də ögey ata (ögey ana)** " sözləri əlavə edilmişdir.

[69] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 118.7-ci və 118.8-ci maddələr əlavə edilmişdir.
[3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli](#) Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 118-ci və 119-cu maddələr yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~Maddə 118. **Övladlığa götürmə qaydası**~~
~~118.1. Övladlığa götürmə uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) verdiyi ərizə əsasında məhkəmə tərəfindən həyata keçirilir. Məhkəmədə övladlığa götürmə barədə işə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır.~~
~~118.2. Övladlığa götürənlərin və övladlığa götürülən uşaqların hüquq və vəzifələri məhkəmənin uşağın övladlığa götürülməsinin müəyyən~~

~~olunması barədə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən yaranır.~~

~~118.3. Məhkəmə uşağın övladlığa götürülməsi barədə qətnamənin qüvvəyə mindiyi gündən 3 gün müddətində bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur.~~

~~118.4. Uşağın övladlığa götürülməsi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üçün müəyyən olunmuş qaydada qeydiyyata alınır.~~

~~118.5. Hər hansı şərtlər altında, hər hansı müddətə və ya nümayəndələr vasitəsilə övladlığa götürmək yolverilməzdir.~~

~~118.6. Uşaq öldükdə övladlığa götürməyə yol verilmir.~~

~~118.7. Azərbaycan Respublikası vətəndaşı olan uşaqlar əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə, övladlığa götürənlərə hüquqi yardım akkreditə edilmiş orqan tərəfindən həyata keçirilir.~~

~~118.8. Akkreditə edilmiş orqan müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~

~~Maddə 119. **Övladlığa götürülən uşaqların və övladlığa götürməyi arzu edən şəxslərin uçotu**~~

~~119.1. Övladlığa götürülən uşaqların uçotu bu Məcəllənin 115.5-ci maddəsində müəyyən olunmuş qaydada həyata keçirilir.~~

~~119.2. Uşaqları övladlığa götürməyi arzu edən şəxslərin uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.~~

~~119.3. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotu müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.~~

9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 119.11-ci maddədə "**119.9.2-ci**" sözləri "**119.10.2-ci**" sözləri ilə əvəz edilmişdir.

[70] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 119-1-ci maddə əlavə edilmişdir.

[71] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 120.1-ci maddədə "**yetkinlik yaşına çatmış şəxslər**" sözləri "**bu Məcəllənin 121.1-ci və 121.2-ci maddələri ilə müəyyən edilən tələblərə cavab verən şəxs (şəxslər)** " sözləri ilə əvəz edilmişdir.

[72] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 120.1.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 120.1.6-120.1.8-ci və 120.4-120.6-cı maddələr əlavə edilmişdir.

9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 120.1.8-ci maddədə "**yaxın qohumlar**" sözləri "**qohumları**" sözü ilə əvəz edilmişdir.

[73] 9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 120.4-cü maddədə "**yaxın qohumları olan**" sözləri "**qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən**" sözləri ilə əvəz edilmişdir.

[74] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 120.4-120.6-cı maddələr əlavə edilmişdir.

[75] 9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 121.1-ci və 121.2-ci maddələrdə "**yaxın qohumlar**" sözləri "**qohumları**" sözü ilə əvəz edilmişdir.

[76] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 121-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Maddə 121. **Övladlığa götürülən uşaq ilə övladlığa götürən arasında yaş fərqi**~~

~~121.1. Övladlığa götürən şəxs nikahda deyilsə, onunla övladlığa götürülən uşağın yaş fərqi 16-dan az olmamalıdır. Məhkəmə tərəfindən üzürlü hesab edilən səbəb olduqda, yaş fərqi qısaldıla bilər.~~

~~121.2. Ögey ata (ögey ana) uşağı övladlığa götürəndə bu Məcəllənin 121.1-ci maddəsində nəzərdə tutulmuş yaş fərqinin olması tələb edilmir.~~

[77] 3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 122.1-ci maddənin ikinci cümləsində ikinci halda "**razılığı**" sözü "**rəyi**" sözü ilə əvəz edilmişdir, üçüncü cümləsindən "**, valideyn himayəsindən məhrum olmuş uşağın yerləşdiyi müəssisənin rəhbəri və ya övladlığa götürmənin həyata keçdiyi yer, yaxud valideynlərin yaşadığı yer üzrə qəyyumluq və himayə orqanı tərəfindən**" sözləri çıxarılmışdır.

[78] 20 oktyabr 2006-cı il tarixli 168-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1006**) ilə 122.4-cü maddədə "**məhkəməyə**" sözü "**Azərbaycan Respublikasının vətəndaşı olan uşaq Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürüldüyü zaman məhkəməyə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldüyü zaman vətəndaşlığından və yaşayış yerindən asılı olmayaraq uşağın öz qohumları tərəfindən övladlığa götürülməsinin qeyri-mümkünlüyünü təsdiq edən sənədlər əlavə edilməklə müvafiq icra hakimiyyəti orqanına**" sözləri ilə əvəz edilmişdir.

3 dekabr 2019-cu il tarixli **1720-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 26 dekabr 2019-cu il, 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 1906**) ilə 122.4-cü maddə ləğv edilmişdir.

[79] 9 mart 2021-ci il tarixli **280-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 11 aprel 2021-ci il, 74, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 4, maddə 308**) ilə 124-cü maddənin adı yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

